AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

9 DEKABR 2018-ci il BAZAR № 276 (6309) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 8, I kitab, maddə 583; 2001, N 7, maddə 454, N 9, maddə 576, N 12, maddə 734; 2002, N 5, maddə 249, N 12, maddə 707; 2003, N 8, maddə 425, N 12, I kitab, maddə 671; 2004, N 1, maddə 1, N 11, maddə 887, N 12, maddə 980; 2005, N 2, maddə 61, N 8, maddə 688, N 12, maddə 1081; 2006, N 12, maddələr 1005, 1026; 2007, N 1, maddə 4, N 6, maddə 597, N 8, maddə 745, N 11, maddə 1053, N 12, maddə 1192; 2008, N 7, maddə 602, N 11, maddə 960; 2009, N 7, maddə 506; 2011, N 1, maddə 14, N 7, maddələr 588, 603, N 12, maddə 1115; 2012, N 6, maddələr 500, 513, N 7, maddə 652, N 9, maddə 841, N 12, maddə 1226; 2013, N 2, maddə 91, N 4, maddə 366, N 11, maddə 1278, N 12, maddələr 1483, 1486, 1495; 2014, N 2, maddələr 94, 98, N 6, maddə 608, N 7, maddə 770, N 8, maddə 957, N 10, maddə 1158, N 12, maddə 1525; 2015, N 1, maddə 11, N 12, maddə 1433; 2016, N 2, I kitab, maddə 207, N 3, maddələr 396, 402, N 5, maddə 848, N 6, maddələr 973, 974, 1015, N 7, maddə 1245, N 10, maddə 1603, N 11, maddələr 1752, 1792, 1793, N 12, maddələr 2001, 2037, 2046; 2017, N 2, maddə 146, N 5, maddələr 695, 723, 737, N 6, maddə 1055, N 7, maddə 1304, N 8, maddə 1509, N 12, I kitab, maddələr 2219, 2251, 2270; 2018, N 2, maddə 149, N 5, maddə 863, N 6, maddə 1193; Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1194-VQD və 1211-VQD nömrəli qanunları) 90.3.3.9-cu maddəsində "torpaq sahəsinin ayrılması barədə qərarın və tikintiyə razılıq verilməsi haqqında sənədin surəti" sözləri "torpaq sahəsi üzərində mülkiyyət, icarə və ya istifadə hüququnu təsdiq edən sənədin və tikintiyə icazənin surətləri" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 1 oktyabr 2018-ci il.**

## "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1246-VQD nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1246-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 15 noyabr 2018-ci il.**

# HEYDƏR ƏLİYEV STRATEGİYASININ UĞURLARI

**Azərbaycan öz müstəqilliyini qlobal ümumdünya problemlərinin bütün qitələri əhatə etdiyi, getdikcə müsbətdən daha çox mənfi problemlər yaratdığı şəraitdə və getdikcə ölkələri əhatə edən ciddi dəyişikliklər ərəfəsində qazanıb. XX əsrin sonunda bəşəriyyət səviyyəsində aydın idi ki, dünyanın idarə edilməsində əsas dünyagörüşləri olan marksist, klassik, liberal və digər ideologiyalar artıq öz dövrünü yaşayıb, yeni sabit inkişafı təmin edən dünyagörüşünə ehtiyac vardır.**

Məsələ ondadır ki, məhz belə bir qlobalizm deyilən, yeni "mütərəqqi" düzən prosesinə start verilən və dünyanın müxtəlif regionlarında qanlı-qansız inqilablarla, müharibə, milli-dini qarşıdurma, iqtisadi, siyasi və sosial böhranlarla, sonu görünməyən hadisələr və proseslərlə müşayiət olunan dövrdə xalqının böyük oğlu Heydər Əliyev Azərbaycana rəhbərlik etmiş, onu gözləyən bütün təhlükələrdən qorumuş və davamlı inkişaf yoluna çıxarmışdır. 1992-ci ildə BMT-nin Rio-de Janeyroda təşkil etdiyi ətraf mühitə və inkişafa dair konfransın qəbul etdiyi sabit inkişaf haqqında konsepsiyada dünya ictimaiyyətinin həyatında neqativ halların təhlükəli artımı qeyd olunmuşdur. Vurğulanmışdır ki, dini ehkamların hakimliyinin yerini tutmuş təbiətin nəzarətsiz istismarına və insan "mən"inə əsaslanan bu inkişaf kimi görünən proseslər XXI əsrin başlanğıcına yaxın demək olar ki, müsbət potensialını tamamən bitirib və özünün son seçim nöqtəsinə çatıb. Ətraf mühitə dəyən çox təhlükəli zərərlər, ekoloji tarazlığın pozulması nəticəsində təbii fəlakətlərin artması da sübut etdi ki, təbiəti ram etmək, hakim olmaq ideyası artıq nəinki lazımsız, hətta, əksinə, bəşəriyyətin fəlakətli sonucu olan bir dünyagörüşünə çevrilib. Həmin konfransda ortaya qoyulmuş alternativ dünyagörüşü axtarışı (sabit inkişaf) cəmiyyətlə təbiətin vəhdətinə nail olmağa, yeni insan yaratmaq əvəzinə, mövcud insanın daxili imkanlarını üzə çıxarmağı, onun yaradıcılığından və bacarığından çıxış etməyi tövsiyə etməkdədir. Bu dünyagörüşü bütün sosial qruplar, regionlar, ölkələr arasında siyasi, iqtisadi, intellektual bərabərsizliyi, dinlər və dövlətlər arasında ziddiyyətləri qarşılıqlı razılaşma, səmərəli nəticəsilə çözməyə imkan verən və müasir dövrün qlobal ekoloji və iqtisadi inkişaf problemlərini birlikdə həll etməyə yönələn gələcəyin ekoloji-iqtisadi-sosioloji modelini yaratmağa çağıran mühüm ideologiya olmalıdır. Bu toplantıdan sonra XXI əsrin kandarında BMT-nin təşkilatçılığı ilə Nyu-Yorkda minilliyin zirvə toplantısı keçirildi. Bu görüşdə dünyada gedən qlobal proseslər müzakirə olundu və gələcək perspektivlərdən bəhs edildi. Həmin sammitdə məşhur Minilliyin İnkişafı Məqsədləri qəbul edilmişdir. İştirakçı hökumət başçıları da bəyan etmişdilər ki, onlar da bu minillik ərzində daha yaxşı cəmiyyət yaratmaq niyyətlərindədirlər. O zamandan məşhur siyasi-ictimai xadimlər, elm nümayəndələri müəyyən cəmiyyətlər, təşkilatlar yaradıb bu istiqamətdə iş aparırlar. Beləliklə, ulu öndər Heydər Əliyevin hər bir xalq və dövlət üçün bu son dərəcə mühüm və həlledici olan bir dövrdə Azərbaycanda dövlətə rəhbərliyə gəldiyi aydın olur. Ulu öndərin bu həyati əhəmiyyətli mərhələdə-bəşəriyyət üçün yeni dünyagörüşünə keçid-qloballaşma ideyasının həyata keçirilməsi dövründə ölkə üçün alternativsiz strareji inkişaf xəttini müəyyən etdiyi aşkarlanır. Beləliklə, mahir siyasətçi və dövlət xadimi olan Heydər Əliyev nəinki dövləti qorudu və qurdu, həm də ölkənin dünya çapında strateji perspektivlərini təyin etdi. Bu uzaqgörən pozitiv strategiya sayəsində Azərbaycan artıq müstəqilliyini elan etdiyi ötən dövrdən Avrasiya məkanında mühüm strateji iqtisadi və siyasi partnyora, çox əhəmiyyətli tranzit-logistika mərkəzinə və Avropanın enerji təhlükəsizliyində beynəlxalq layihələrin təşəbbüsçüsünə, iştirakçısına və icrasında lider dövlətə çevrilib.



Azərbaycanı təmsil edən ulu öndər Heydər Əliyev dünyada əməkdaşlığn, sosial-iqtisadi inkişafın, milli-dini dözümlülüyün, insanların dinc yanaşı yaşamasının tərəfdarı idi və o, 7 sentyabr 2000-ci il tarixdə minilliyin zirvə toplantısında öz çıxışında deyib: "Dünyanın inkişafının indiki mərhələsinin başlıca meyli qloballaşmadır. Bu mürəkkəb, heç də birmənalı olmayan prosesin perspektivləri bizim hamımızı düşündürür. Qloballaşma dövlətlərin sabit inkişafına, bütövlüyünə və idarəetmə sisteminin stabilliyinin təmin olunmasına, iqtisadi münasibətlərdə ayrı-seçkiliyin aradan qaldırılmasına, xalqların rifah halının yüksəldilməsinə kömək etrməlidir".

XX əsr tarixin səhifələrində nəhəng elektrikləşdirmə prosesi, atom, informasiya-kommunikasiya texnologiyaları dövrü, kosmosun kəşfi və kosmik sənayenin sürətli inkişafı, sənayeləşmənin yüksək səviyyəsi, təbiətə hakimlik və sairə ilə səciyyələnib. Lakin bu yüksək inkişaf səviyyəsi ətraf mühitə ölümcül zərbə vurub, ozon təbəqəsinin deşilməsi, təbii fəlakətlərin intensivləşməsi, qlobal istiləşmə prosesinin güclənməsi, təbii balansın pozulması, atmosferə həddindən artıq zərərli maddə və məhsulların buraxılması, okean sularının səviyyəsinin qalxması, Şimal Buzlu okeanda, Antarktidada buzlaqların əriməsi, digər bəşəriyyətə fəlakətlər, faciələr gətirəcək hadisələrə və proseslərə səbəb olacaq dəyişmələr də bəxş edib. Bundan başqa, insanlar, dövlətlər arasında təbəqələşmə baş verib vəistismara yol verilib. Ötən yüzilliyin sürətli və yüksək templi elmi-texniki inkişafı XXI əsr üçün bir ümumbəşəri problem də yaradıb. Artıq insan toplumu daxilində fərdlər müxtəlif iş prosesində bir-biri ilə necə əlaqəli olurdularsa, əməkdaşlıq sayəsində nəticə əldə edirdilərsə, dövlətlər də eyni dərəcədə biri-digərindən asılı vəziyyətdədirlər. İnteqrasiya və qarşılıqlı maraqları ödəyən əməkdaşlıq adını almış bu beynəlxalq proses XXI əsrin ötən illərində özünü həyatda tam təsdiq edib. Əgər bəşəriyyətin ikiyüzillik sənayeləşmə tarixinə nəzər salsaq görərik ki, XIX əsrdə və XX əsrin əvvəllərində iqtisadi sahələrin yerdəyişməsi prosesi hakim idi. İmperiyaların yaranması sənayenin bölgələrə transferinə yol açdı, dövlətlərarası iqtisadi əməkdaşlıq dünya çapında sənaye sahələrinin sürətlə yayılmasına geniş imkan və şərait yaratdı. Daha sonra iqtisadi bazisin tələbi ilə imperiyaların dağılması bu inkişafa yeni təkan verdi. Müstəqil olmuş dövlətlər öz iqtisadiyyatlarını hərtərəfli inkişaf etdirmək üçün beynəlxalq əməkdaşlığı, xüsusən də öz metropoliyaları ilə əlaqələri yeni keyfiyyətdə genişləndirdilər, nəticədə bu ölkələr həm də yeni bazar keyfiyyəti daşımaqla elmi-texniki inqilabın daha yüksək səviyyəyə qalxmasında stimul rolunu oynadılar. Sənaye inqilabının daha yüksək səviyyəsi isə informasiya-kommunikasiya texnologiyalarının yaranması, yayılması və inkişafında fantastik sürətin əldə olunması və innovativ tempinin daim artması ilə bağıdır. Bu gün İKT dünyanı az qala bir qəsəbəyə, uzaq qitə dövlətlərini isə qapıbir qonşulara çevirib. Belə ki, uzaq bir qitə dövlətində baş verən hadisə başqalarına da sirayət edir. Beləliklə, biz qloballaşma erasına qədəm qoymuşuq və iradəmizdən asılı olmayaraq artıq vahid ümumdünya proseslərinin fəal iştirakçısıyıq. Bəs Azərbaycan müasir ümumdünya və ümumbəşəri proseslərdə hansı mövqedədir? Aydın olduğu kimi, ölkəmizdə azadlıq uğrunda mübarizə məhz Heydər Əliyevin hakimiyyətə ilk gəlişi ilə 1969-cu ildən başlayırsa, həqiqi müstəqillik tariximiz də, onun Azərbaycana yenidən qayıdışı 1993-cü ildən, ölkənin taleyüklü problemlərinin həlli məsuliyyətini öz üzərinə götürdüyü vaxtdan başlanır. Bu idarəetmə qlobalizm prosesinin ilk addımları dövrünə aiddir və Heydər Əliyev dövlətin uğurlu gələcəyini həll edə biləcək islahatlar həyata keçirməklə gərgin beynəlxalq proseslər zamanında müstəqilliyin qorunmasına, iqtisadiyyatın dirçəldilməsinə və innovativ inkişaf yoluna çıxmasına nail olub. Daxili sabitliyin bərqərar olması, dövlət quruculuğu, müasir idarəetmə sisteminin, dövlətçiliyin yaradılması və möhkəmlənməsi, demokratik və hüquqi islahatların həyata keçirilməsi, neft amilindən Azərbaycanın milli maraqlarına uyğun istifadə edilməsi üçün dünyanın aparıcı şirkələri ilə "Əsrin kontraktı"nın bağlanması, dünyanın nüfuzlu dövlətləri ilə səmərəli əməkdaşlıq, ən mötəbər beynəlxalq təşkilatlarda təmsil olunma, həmçinin beynəlxalq əhəmiyyətli nəhəng transmilli layihələrin reallaşması ümummilli liderin ölkə qarşısında əvəzsiz xidmətləridir və müasir əsrin dünyanın demək olar ki, əksər ölkələrini təhdid edən mürəkkəb və mənfi proseslərinə çox dolğun və adekvat cavabdır.

Bu gün ulu öndərin müəyyənləşdirdiyi strateji inkişaf kursunu Azərbaycan Prezidenti İlham Əliyev qlobalizmin müasir çağırışlarına müvafiq çox böyük səriştə və uğurla həyata keçirir. Bu strategiyanın əsasında bir tərəfdən həmin ümumdünya prosesinin tələb etdiyi inteqrasiya, yaxınlaşma, sabitliyi təmin edən siyasət, müasir innovasiyalı əməkdaşlıq, inkişaf durursa, digər tərəfdən, düzgün, beynəlxalq siyasi-iqtisadi təhlil, dünya dövlətləri ilə qarşılıqlı mənafeli əlaqələrin genişlənməsi, anlaşma, bir-birinin işinə qarışmama, etimad və etibar, açıqlıq, şəfaflıq, səmimilik prinsipi bu prosesə güclü stimul verir. Nəticədə baş verən geniş çoxşaxəli əməkdaşlıq Azərbaycanı sürətli innovativ inkişaf və nüfuzlu dövlət yoluna çıxarmışdır.

Bu gün dünyada gedən qlobalizm proseslərinə diqqət etsək görərik ki, mövcüd dövlətlər üç qismə bölünüb: 1) dünyada yeni düzən yaradaraq yönəltmək istəyən, buna səy edən aparıcı dövlətlər və fövqəlgüclər; 2) bu düzəndə mənfi prosesin məntiqini hiss edən, duyan, gələcəyi doğru proqnozlaşdıraraq düzgün siyasi kurs yürüdən və müasir ümumbəşəri dünyagörüşlərinin və ideyalarının mahiyyətini anlayaraq idaraedilən böhran və kataklizmlərə qarşı mübarizə aparanlar; 3) dövrün məntiqi axarını anlamayan, əksinə hərəkət edənlər və bu bəşəri təhlükəyə qarşı çıxa bilməyən zəiflər. Beləliklə, qloballaşma düşünülmüş siyasətlə, milli mənafelərı qorumaqla qarşılıqlı maraqları təmin edən intensiv, sürətli əlaqə, əməkdaşlıq tələb edir. Bu zaman dövlət öz mövqeyini qoruya və sosial-iqtisadi inkişafını təmin edə, milli-mənəvi dəyərlərini qoruya bilər. Azərbaycan dövləti məhz Heydər Əliyevin müəllifi olduğu bu alternativsiz düşünülmüş siyasəti reallaşdırır. Bir fakta nəzər yetirək. 11 sentyabr 2001-ci ildə Nyu-Yorkda Beynəlxalq Ticarət Mərkəzində baş verən terror zamanı burada 64 millətin nümayəndəsi həlak olmuşdur. Bu rəqəm iqtisadi-ticari əməkdaşlığın genişliyini, yəni qlobal əməkdaşlıq prosesinin bir təzahürünü ifadə edir, həm də bir ölkədəki faciənin dünyanın digər dövlət və xalqlarına da necə aid olmasının bir göstəricisidir. ABŞ-ın sabiq prezidenti Bill Klintonun qloballaşmanın xarakterinə dair dediyi bu sözlər prosesin nə qədər geniş əhatəyə malik olduğunu aydın göstərir: "Qloballaşma bağlı qapıları açır, millətlər, xalqlar, fərdlər, müxtəlif iqtisadiyyatlar və mədəniyyətlər arasında yeni şərait yaradır". İfadənin mahiyyətinə diqqət etdikdə batini məzmunun dövlətlərin inteqrasiya və vahid insan toplumu prosesini əks etdirdiyini görərik. Lakin bu inteqrasiya hansı üsulla, hansı mexanizmlərlə baş verməlidir ki, dövlətlər öz müstəqilliklərini qoruya, xalqlar milli-mənəvi diskriminasiyaya məruz qala, əriməyə, ilhaq edilməyə məhkum olmasınlar. Bu prosesdə milli mənafeni mühafizə edən, qarşılıqlı maraqlara uyğun müstəqil siyasət yürüdə bilməklə iştirak edə bilənin öz varlığını qoruya biləcəyi və sosial-iqtisadi inkişafını təmin edəcəyi şəksizdir. Qloballaşmanın bütün ölkələri əhatə etdiyi, dönməz olduğu bir şəraitdə bu proses getdikcə özünü daha qabarıq büruzə verməkdədir. Reallıqdır ki, müasir şəraitdə dünya çapında çox mürəkkəb hadisələr zəminində qütbləşmə, strukturlaşma baş verir və bu proses davamlı surətdə sürətini artırır. Diqqət edin, neft və qazla zəngin Yaxın Şərqdəki qanlı hadisələr fonunda Aralıq dənizində tapılan trilyon tonlarla karbohidrogen yataqları üstündə çox gərgin mübarizə başlayıb. Təqribən 10 dövlətin hərbi gəmiləri oraya göndərilib, nəhəng şirkətlər işə qatılıblar. Görünsdüyü kimi, qlobalizm prosesinin batinində dayanan əsas iqtisadi maraqlar da artıq aşkardır.

Beləliklə, qloballaşma özü ilə dövlətçiliyin, maraqların və milli-mənəvi dəyərlərin yenidən qiymətləndirilməsini və uzlaşma probleminin həlli üsullarını da meydana qoyub. Bu qlobal prosesdə "bəşəri mənəviyyat" və "bəşəri ədalət" məfhumları da tez-tez işlədilir. Azərbaycanın gərgin regional strukturlaşmada iştirakını Azərbaycan-İran-Türkiyə və Azərbaycan-Gürcüstan-Türkiyə, Azərbaycan-ATƏT, Avropa İttifaqı və s. ilə, yəni iki tərəfli - üçtərəfli və çoxtərəfli əməkdaşlıq formatları istiqamətində fəaliyyətini misal kimi göstərmək olar.

**(davamı 4-cü səhifədə)**

# Ürəklərdə əbədi yaşayan dahi şəxsiyyət

**Azərbaycan xalqının dahi oğlu Heydər Əliyev bəşər tarixinin bizə bəxş etdiyi ən böyük şəxsiyyətlərdəndir. Tərəqqipərvər insanlar və bütün Azərbaycan xalqı Heydər Əliyevin şəxsiyyətinə, onun ideyalarına, qoyub getdiyi dəyərli irsə böyük hörmət və ehtiram hissi ilə yanaşırlar. Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü Heydər Əliyevin şərəfli adı və möhtəşəm fəaliyyəti ilə bağlıdır. Onun rəhbərliyi dövründə respublikamız əsrlərə bərabər inkişaf yolu keçmişdir.**

Ümummilli liderimiz Heydər Əliyevin milli və ümumbəşəri dəyərlərə söykənən ideyaları yüz illərlə yaşayacaq və qalib gələcəkdir. 60-cı illərin sonuna qədər Azərbaycan keçmiş SSRİ-nin müttəfiq respublikaları arasında sosial-iqtisadi göstəricilərinə görə geridə qalan aqrar ölkə kimi tanınırdı. Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə 70-80-ci illərdə respublikada sosial-iqtisadi sahədə çox böyük işlər görülmüş və yüksək nailiyyətlər əldə edilmişdir. Həmin dövrdə respublikanın sosial-iqtisadi sahələrinin inkişafına əvvəlki 50 ildə olduğundan 1,4 dəfə çox vəsait qoyulmuşdur. 250-dən çox zavod, fabrik, istehsal sexi və emal müəssisələri tikilib istifadəyə verilmiş, çox gəlirli sahə olan üzümçülük sürətlə inkişaf etdirilmiş və istehsalata yeni texnologiyalar tətbiq olunmuşdur. Respublikada milli gəlir 2,5 dəfə artmış, adambaşına ictimai məhsul istehsalının artım tempi 2 dəfədən çox olmuşdur. Sənaye məhsullarının istehsalı 2,7 dəfə artmışdır ki, bu da əvvəlki 30 ildə istehsal olunan məhsulun həcmindən təqribən 2 dəfə çox idi. Kənd təsərrüfatında ümumi məhsul istehsalı 2,7 dəfədən çox olmuşdur. Həmin dövrdə respublikada 18,5 milyon kvadratmetrlik mənzil tikilib istifadəyə verilmiş və 2 milyon 200 min adam yeni mənzilə köçmüş və ya mənzil şəraitini yaxşılaşdırmışdır.

Azərbaycanda təhsil və səhiyyə sisteminin inkişaf etdirilməsinə də o illərdə xüsusi diqqət göstərilmişdir. Həmin dövrdə tutumu 419 min 968 şagird olan 792 ümumtəhsil məktəbi, 660 yerlik 3 internat məktəbi, 66 min 807 yerlik 414 məktəbəqədər tərbiyə müəssisəsi tikilib istifadəyə verilmişdir.

Göstərilən illərdə respublikada səhiyyə sahəsində həm keyfiyyət, həm də kəmiyyət baxımından çox böyük işlər görülmüşdür. Mövcud xəstəxanaların əksəriyyəti təmir olunaraq yeni avadanlıqlarla təchiz edilmiş, əhaliyə ambulatoriya-poliklinika xidməti göstərən müalicə müəssisələrinin sayı 11 faiz artaraq 1191 ədədə çatmış, qadın məsləhətxanalarının, uşaq poliklinikalarının və ambulatoriyalarının sayı 3,2 dəfə artmışdır.

Tarixi şəxsiyyətlər əsrlərin və nəsillərin yaddaşında əbədi yaşayırlar. Zaman ötdükcə onların xalqı və vətəni üçün etdiklərinin, ölkəsinin inkişafındakı xidmətlərinin əhəmiyyəti daha çox nəzərə çarpır. Azərbaycanın 1970-ci illərdən başlayan inkişafı, uğurları və yüksəlişi ümummilli liderimiz, müdrik zəka sahibi Heydər Əliyevin adı ilə bağlıdır. Böyük rəhbərin hakimiyyətdə olduğu dövr Azərbaycan elminin, təhsilinin, səhiyyə və mədəniyyətinin, iqtisadiyyatının sürətli tərəqqisi ilə yadda qalmışdır. Bu illər milli-mənəvi dəyərlərimizin qorunması, vətəndaşların sosial həyat tərzinin yaxşılaşdırılması, dünya azərbaycanlılarının monolit bir qüvvə kimi təşkilatlanması, gənclərimizin dövlətçiliyimizin tərəqqisi prosesinə cəlb edilməsi Heydər Əliyev strategiyasının uğuru kimi qeyd olunmalıdır. Ulu öndərimizin Azərbaycana birinci dəfə rəhbərlik etdiyi dövr quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olub. Heydər Əliyevin Azərbaycan iqtisadiyyatının inkişafındakı xidmətləri özünü hələ sovet dövründə göstərib.

Azərbaycan əsrin sonunda Heydər Əliyevin təşəbbüskarlığı sayəsində ən irimiqyaslı iqtisadi layihələrin mərkəzinə çevrilib. Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi hələ 70-80-ci illərdə təməli qoyulmuş potensiala söykənir. Məhz o illərdə ölkəmizin gələcəyi üçün çox mühüm addımlar atılıb. İnfrastruktur yeniləşib, neft sənayesi yenidən qurulub, nəhəng kimya və neft-kimya, elmi-mədəni tərəqqiyə nail olunub, ölkəmizin iqtisadi, sosial, elmi-texniki potensialı möhkəmləndirilib. Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 34 il ərzində xalq üçün, vətən üçün etdiklərini bəzən adi insan təfəkkürünün əhatə dairəsinə sığışdırmaq olmur. Böyük öndərimiz tariximizə xilaskar kimi daxil olub və respublikamıza rəhbərlik etdiyi hər iki dövrdə bu missiyanı çox böyük uğurla yerinə yetirib. Müasir Azərbaycan cəmiyyətinin formalaşması, müstəqil Azərbaycan dövlətinin qurulması birbaşa Heydər Əliyevin adı ilə bağlıdır. Təsadüfi deyil ki, ümummilli liderimiz azərbaycanlı olması ilə fəxr etdiyi kimi, hər bir azərbaycanlı da bu gün Heydər Əliyevin ən böyük sənət əsəri olan müstəqil, inkişaf etmiş Azərbaycanın vətəndaşları olmaqdan qürur duyur, böyük öndərə sayğı və məhəbbətini onun ideyaları ətrafında daha da sıx birləşməklə nümayiş etdirir.

Dünyanın məşhur siyasətçiləri, dövlət xadimləri Heydər Əliyevi siyasət nəhəngi, siyasət şahmatının mahir ustası adlandırırdılar. O, tarixi perspektivləri qabaqcadan görmüş, ən çətin məqamlarda düzgün qərarlar qəbul etmək bacarığı ilə çoxlarını heyran qoymuşdur. Onu Franklin Ruzvelt, Uinston Çörçill, Şarl de Qoll, Atatürk kimi nəhənglərlə müqayisə edirlər.

Heydər Əliyev Azərbaycanı inkişaf etmiş dövlətlərin, millətini firavan həyat sürən xalqların cərgəsində görmək istəyirdi. Ömrünün son anınadək xalqının gələcək taleyi haqqında düşünürdü. Heydər Əliyev Vətən üçün, xalq üçün doğuldu, tərəqqi, inkişaf, azadlıq, müstəqillik üçün cəsarətlə çalışdı. Bununla da xalqın gözündə, qəlbində dağ kimi ucaldı. Ona görə də xalqın öz sədaqəti, dahi övladına məhəbbəti sonsuzdur, əbədidir... Ulu öndər əsl ümumxalq məhəbbəti, sevgisi qazanmış tək-tək siyasətçilərdən, dövlət xadimlərindəndir. Bu dahi şəxsiyyət Azərbaycanı yox olmaqdan qurtardı, müstəqilliyimizi dönməz etdi, sabitlik və təhlükəsizliyin qarantı oldu, Azərbaycanı inkişafa, firavanlığa doğru addımlayan, dünya birliyində layiqli yerini tutmuş bir dövlətə çevirdi.

Ulu öndər Heydər Əliyev siyasətçi və dövlət xadimi kimi ən uca missiyanı gerçəkləşdirərək müstəqil Azərbaycan dövlətinin memarı oldu və bu tarixi öz əməlləri ilə yazdı. Onun həyatı və fəaliyyəti Azərbaycan tarixinin bir hissəsi və bəlağətsiz deyə bilərik ki, bu tarixin ən şanlı səhifələridir. Bu şəxsiyyətin həyatını öyrənmək, onun gördüyü işlərin, başladığı layihələrin tarixi əhəmiyyətini dərk etmək özü böyük bir tarix məktəbini bitirmək deməkdir. Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bir qərinədən artıq dövrdə ölkənin həyatında, xalqın taleyində elə bir əzəmətli rol oynayıb ki, bu, əsrlər boyu unudulmayacaqdır. Azərbaycanın hər bir bölgəsində Heydər Əliyev quruculuq fəaliyyətinin silinməz izləri var.

Müstəqillik əldə etdikdən sonra insan hüquq və azadlıqlarının qorunması məqsədilə həyata keçirilən hüquqi islahatlar içərisində ən mühümü məhz azad yaşamaq hüququnun təmini istiqamətində həyata keçirilən tədbirlər planı olmuşdur. Demokratik-hüquqi dövlət quruculuğu yolunu tutmuş Azərbaycan xalqı müstəqillik əldə etdikdən sonra bir çox çətinliklərlə qarşılaşmışdı. O dövrdə ölkəmizdə hökm sürən hərc-mərclik, özbaşınalıq, qanunsuz silahlı birləşmələrin mövcudluğu, cinayətkarlığın tüğyan etməsi, insanların dinc və təhlükəsiz yaşamasını ciddi təhdid altında qoymuşdu. Ulu öndərimizin həyata keçirdiyi siyasət nəticəsində dövlətçiliyimiz möhkəmləndirildi, ictimai-siyasi sabitlik bərqərar edildi, qanunsuzluqlara, zorakılığa, cəzasızlıq əhval-ruhiyyəsinə son qoyuldu. Vətəndaşlarımız təhlükəsiz yaşamaq hüququ əldə etdilər. Bütün bunlar demokratik cəmiyyətin qurulmasına, insanların hüquq və azadlıqlarının müdafiəsinə təminat verdi.

Tarixən məhkəmə-hüquq sistemində köklü dəyişikliklərin həyata keçirildiyi, vətəndaş cəmiyyəti quruculuğu istiqamətində inamlı addımların atıldığı dövlətlərdə insan hüquq və azadlıqlarına maksimum təminat yaradan yeni Konstitusiyanın qəbulu qaçılmaz olur. Cəmiyyətdə siyasi sabitliyin, sülhün, ümumi razılığın təminatçısı kimi çıxış edən Konstitusiya, eyni zamanda dövlətin gələcək inkişaf prioritetlərini, şəxsiyyət, cəmiyyət və dövlət arasındakı münasibətlərin sivil çərçivələrini müəyyənləşdirir. Əsas Qanun bütün hüquq sisteminə xas olan hüquqi tənzimləmə funksiyasını yerinə yetirməklə yanaşı, sosial, siyasi, humanist missiyanı da həyata keçirir. Dövlət quruluşunun təməl prinsiplərini müəyyənləşdirən Konstitusiya həm də cəmiyyət həyatının başlıca sahələrinə dövlət müdaxiləsinin meyarlarını, yol verilən həddini dəqiqləşdirir, bu sahədəki dövlət siyasətinin ümumi istiqamətlərini təsbit edir. Bütün bu və ya digər xüsusiyyətləri ilə konstitusiyalar hər bir xalqın və dövlətin həyatında xüsusi rola malikdir.

Həmin dövrdə həlli vacib olan məsələlərdən biri davam etməkdə olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin gedişinə təsir göstərə biləcək qəti addımlar atılması idi. Bunsuz ölkənin ərazi bütövlüyünü qorumaq, daxili ictimai sabitliyə nail olmaq mümkün deyildi. Milli Ordunun döyüş qabiliyyətinin artırılması və genişmiqyaslı müdafiə tədbirlərinin həyata keçirilməsi, döyüşçülərdə yaranan ruh yüksəkliyi sayəsində düşmənə qarşı bir neçə uğurlu hərbi əməliyyat aparıldı. Belə şəraitdə beynəlxalq qüvvələrin təsiri altında münaqişə tərəfləri atəşi dayandırmaq barədə razılığa gəldilər. Bu barədə saziş 1994-cü ilin mayında imzalandı və münaqişənin dinc vasitələrlə aradan qaldırılması prioritet istiqamət seçildi. Ötən iyirmi dörd ildə bu istiqamətdə göstərilən səylər konkret nəticə verməsə də, atəşkəs rejimi Azərbaycanın müstəqil dövlət kimi yaşamasını və sonrakı inkişafını şərtləndirən amillərdən biri olmuşdur. Lakin müstəqil dövlətçiliyimizin möhkəmləndirilməsi, sosial-iqtisadi inkişafın bünövrəsinin qoyulması Azərbaycanı yenidən anarxiya və başıpozuqluq girdabına salaraq bundan öz mənfəətləri naminə istifadə etmək istəyən daxili və xarici qüvvələrin ciddi müqaviməti ilə üzləşdi. 1994-cü ilin oktyabrında və 1995-ci ilin martında dövlət çevrilişinə silahlı cəhdlər göstərilməsi müstəqil dövlətçiliyimiz üçün növbəti sınaqlar oldu. Ümummilli lider Heydər Əliyevin cəsarəti, xalqın öz qüdrətli liderini qətiyyətlə dəstəkləməsi nəticəsində bu təhlükəli cəhdlərin qarşısı alındı, ölkədə hakimiyyəti zor və silah gücünə ələ keçirilməsinə son qoyuldu. 1993-1995-ci illər müasir Azərbaycanın tarixinə dövlət müstəqilliyinin qorunub saxlanılması uğrunda mübarizə dövrü kimi yazılmışdır. İctimai-siyasi sabitliyin və qanunçuluğun bərqərar edilməsi bu dövrün ən mühüm nailiyyəti oldu və ümummilli liderimizə dövlət quruculuğunda, iqtisadi, sosial və mədəni həyatda böyük işlərə başlamaq, genişmiqyaslı və ardıcıl islahatlar aparmaq üçün əlverişli imkan yaratdı. Ulu öndər əmin idi ki, demokratik dəyərlərin üstünlüyünü qəbul edən, azadlığın, haqq və ədalətin bərqərar olunduğu dövlət qurmaq istəyən hər bir ölkə, hər bir xalq üçün Konstitusiya birinci dərəcəli əhəmiyyət daşıyır. Siyasi, iqtisadi, hüquqi sistemin köklü şəkildə dəyişdiyi, cəmiyyətdə keçid dövrünün başlandığı bir vaxtda Konstitusiyanın - Əsas Qanunun rolu qat-qat artır.

Beləliklə, ümummilli lider Heydər Əliyevin böyük səyləri nəticəsində dövlətçiliyə qarşı yönəldilmiş qəsdlərin qarşısı alındıqdan və ölkədə Əsas Qanunun qəbuluna zəmin yaradan şərait, siyasi sabitlik formalaşdıqdan sonra Milli Məclisin iclasında ölkə Prezidentinin sədrliyi ilə Konstitusiya layihəsinin hazırlanmasına məsul olan xüsusi komissiya yaradıldı. Görkəmli alimlərin, hüquqşünasların, mütəxəssislərin və rəhbər işçilərin daxil edildiyi bu komissiya 1995-ci il iyul ayının 5-də ilk iclasını keçirdi.

Komissiyanın iclasında geniş nitq söyləyən ümummilli lider Heydər Əliyev dəyərli tövsiyələrini, məsləhətlərini vermişdir. “Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasında demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamanı təmin edən əsas qanun, tarixi sənəd olsun. Hakimiyyət bölgüsü, - ali icra, qanunvericilik, məhkəmə hakimiyyəti - bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır” - deyən ulu öndər Heydər Əliyev Azərbaycan Respublikasının ilk Konstitusiyasının hazırlanmasında həm Azərbaycanın tarixi keçmişinin milli dəyərlərindən, həm də ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin təcrübəsindən istifadə edilməsini mühüm vəzifə kimi irəli sürmüşdür.

Nəhayət, 1995-ci il noyabrın 12-də Azərbaycanın tarixində ilk dəfə olaraq müstəqil dövlətimizin Konstitusiyası ümumxalq səsverməsi yolu ilə qəbul edildi. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin əsas müddəalarını özündə əks etdirən Konstitusiyada insan və vətəndaş hüquqlarının, azadlıqlarının təmin edilməsi dövlətimizin ali məqsədi kimi bəyan olundu. Çoxəsrlik dövlətçilik ənənələrimizə, milli və ümumbəşəri dəyərlərə söykənərək yaradılan Konstitusiyamız hüquqi-demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunun təməlini qoydu. 1993-cü ilin iyun ayından ölkəmizdə ölüm cəzasının icrasına moratorium qoyulmuş, daha sonra ölüm cəzasının tətbiqi məhdudlaşdırılmış və 1998-ci il fevralın 10-da Şərqdə ilk dəfə olaraq ölkəmizdə ləğv edilmişdir. Bu tarixi addım fəlsəfi, hüquqi düşüncələrə, dərin elmi təhlilə, dünya təcrübəsinə və reallığa əsaslanmaqla humanizm, insanpərvərlik, ədalət, şəxsiyyətə və insan hüquqlarına hörmət kimi yüksək amallarla yaşayan ulu öndərin gələcək nəsillərə misilsiz töhfəsi oldu. Dövlət başçısının 3 fevral 1998-ci il tarixli müraciətində deyilirdi: “Mən cinayət-hüquq siyasətini hərtərəfli təhlil edərək, ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək ideallara sadiq qalaraq ölkəmizdə ölüm cəzasının ləğv edilməsi qənaətinə gəlib bu tarixi bəyanatı vermişəm”. Ölüm cəzasının ləğvi Azərbaycanın hüquqi-demokratik dövlət quruculuğu yolunda olduğunu bir daha sübut etdi.

Müstəqil Azərbaycan dövlətinin keçdiyi sınaqlar, dövlətçiliyimizin ən ağır günlərində Heydər Əliyevin göstərdiyi qətiyyət bu sözlərdəki gerçəkliyi dəfələrlə təsdiqləyib. Heydər Əliyevin Azərbaycan üçün gördüyü işləri sadalamaqla bitib-tükənən deyil. Dahi şəxsiyyət bu gün sıralarımızda olmasa da, onun möhtəşəm işləri, əməlləri, misilsiz xidmətləri hamımıza bəllidir və gözümüz önündədir. Heydər Əliyev fövqəlbəşər bir dühа kimi xalqın əbədi məhəbbətini qazandı. Milyonlarla insanın ümid çırağına çevrilərək qəlblərdə əbədi yurd salmaq heç də bütün rəhbərlərə, liderlərə nəsib olmur. Hələ sağlığında canlı əfsanəyə çevrilmiş Heydər Əliyev Ürəklərdə özünə heykəl ucaldıb. Onun parlaq ideyaları hələ uzun illər boyu gələcəyə gedən yollarımızı işıqlandıracaqdır. Bütün mənalı ömrünü xalqa həsr edən bu nurlu şəxsiyyətə bəslənilən sevgi sonsuzdur. Qədirbilən xalqımız onun xidmətlərini heç vaxt unutmayacaq, parlaq ideallarını öz yolunda mayaka çevirəcəkdir.

Heydər Əliyev dünyanın nadir insanlarındandır. Təkrarsız, heyrətamiz yaddaşa malik Heydər Əliyev əsl rəhbərə xas olan ensiklopedik biliyə malik idi. Geniş və zəngin fəaliyyəti onu yalnız milli maraqlar çərçivəsinə sığmayan, bəşəri dəyərlərin əxz olunmasında fəal iştirak edən böyük bir siyasətçiyə, dahi bir şəxsiyyətə çevirmişdi. Bu yenilməz şəxsiyyət həm də təvazökarlıq simvolu idi.

Heydər Əliyev və onun əməlləri daim yaşayacaq, Azərbaycan xalqı, bütün türk dünyası onu heç vaxt unutmayacaq. Bütün ömrünü xalqımızın tərəqqisinə və firavanlığına həsr etmiş ulu öndərin həyat və fəaliyyəti bizim üçün örnəkdir, güc mənbəyidir. Bugünkü Azərbaycanın sürətli inkişafının təməli məhz Heydər Əliyev tərəfindən yaradılıb. Bu siyasi kursa Azərbaycanda alternativ yoxdur. Xalqımız xoşbəxtdir ki, ümummilli liderimizin siyasi kursu bu gün onun layiqli siyasi varisi, Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. İnanırıq ki, dövlətimiz milli öndərimiz Heydər Əliyev dühasından bəhrələnən, onun siyasi kursunun ən ləyaqətli davamçısı cənab İlham Əliyevin dövlətçilik bacarığı və rəhbərlik qabiliyyəti sayəsində daha da inkişaf edəcək, müstəqilliyini və suverenliyini daha da möhkəmləndirəcəkdir. Bu isə o deməkdir ki, dövlətimiz etibarlı əllərdədir.

**Azad İBRAHİMOV,**
**“ANT-İnşaat və Təmir Tikinti” MMC-nin baş direktoru.**



# Heydər Əliyevin “Azərbaycançılıq” konsepsiyası mentalitetimizin elmi-fəlsəfi qaynağıdır

**Hamıya məlum olduğu kimi, hər bir millətin formalaşma prosesində milli-əxlaqi mənəvi dəyərlər və yaxud milli mentalitet mühüm rol oynayır. Yəni vahid bir ərazidə yaşayan, eyni soykökə, dilə, iqtisadi həyat birliyinə malik olan müxtəlif etnoslar üçün milli mənəviyyatın, milli özünəməxsusluğun olması və saxlanılması olduqca vacibdir. Qeyd etmək lazımdır ki, millətin formalaşma səbəblərindən biri kimi məhz mənəviyyat birliyi, onun mənəvi siması, mənəvi dəyərləri, eləcə də yalnız bu insanlara məxsus keyfiyyətlər (mentallıq) göstərilir. Vaxtilə Türk dünyasının böyük atası hesab olunan M.K.Atatürk türk millətində özünüdərketmə prosesini diqqətlə izləyərək demişdir: “Türklük kəndində, kəndi milli mənlik və milli yaddaşa qayıtmaq deməkdir.”**

Milli-mənəvi dəyərlər və milli mentalitet əsasən bir-birlərinə yaxın anlayışlardır. Bu anlayışlarda millətin keçmişə aid irsi, dini-fəlsəfi dünyagörüşü, özünəməxsus cəhətləri öz əksini tapır. Sadəcə olaraq, milli-mənəvi dəyərlər daha geniş məna daşıyır və millətin bütün tarixini, mədəniyyətini, fəlsəfəsini, ədəbiyyatını özündə əks etdirir. Milli mentalitet isə daha çox insanların ictimai şüurundakı dünyagörüşün özünəməxsusluğunun ifadəsidir. Bu baxımdan milli mentalitet milli-mənəvi dəyərlərdən milli özünüdərkə bir keçiddir. Belə ki, bir xalqda milli-mənəvi dəyərlər o vaxt milli özünəməxsusluq səviyyəsində meydana çıxır ki, həmin xalqda milli oyanışa, milli özünüdərkə ehtiyac yaranır. Yəni millət etnik kimliyinin, dilinin, mədəniyyətinin və s. assimilyasiya olunmasını sövqi-təbii hiss edərək özünümüdafiəyə cəhd edir. Bu zaman milli-mənəvi dəyərlər milli mentallıq formasında - etnik mənşəyi, dili, mədəniyyəti, dini ideologiyası, sosial həyatı, məişət münasibətləri və s. ilə bağlı keçmişini şüurunda canlandırıb yalnız ona aid olan milli-mənəvi dəyərlərlə, milli sərvətlərlə mübarizə aparma səviyyəsinə yüksəldir. Ümumiyyətlə, mentallıq hər bir millətin özünəməxsus psixoloji, mədəni, dini və fəlsəfi həyat tərzidir. Bu mənada hər hansı bir millət özünü başqa xalqlardan fərqləndirmədən, yalnız onun keçmişinə məxsus olan milli xüsusiyyətləri müəyyənləşdirmədən milli istiqlal uğrunda mübarizə apara bilməz. Milli mentalitetin yüksək səviyyəyə qalxması ilə milli özünüdərk prosesi başlayır. Bu mənada milli mentalitetə aid olan hər bir anlayış milli özünüdərk səviyyəsinə qalxıb milli ideyaya çevrilə bilməz. Yalnız o anlayış milli mentalitet səviyyəsindən milli özünüdərkə qədər yüksələ bilər ki, onun ciddi elmi, fəlsəfi və s. əsasları olsun. Çünki milli mentalitetdən fərqli olaraq milli özünüdərk hər hansı bir etnik toplumun başqa etnoslardan fərqli özəlliklərini dərk edib, özünü bir millət kimi təsdiq etməsidir.

Milli-mənəvi dəyər(lər) dedikdə isə, ilk növbədə milli ideologiyanın yaranmasında mühüm rol oynamış milli sərvətlərimiz, mədəniyyətimiz, mənəviyyatımız, dilimiz, adət-ənənələrimiz, dini-fəlsəfi dünyagörüşümüz və s. başa düşülməlidir. Əslində burada başlıca, önəmli olan milli mənəviyyat, milli sərvətlər, milli özünəməxsusluq, yaxud da milli mentalitetdir. Bu mənada “milli-mənəvi dəyər” anlayışındakı “dəyər” sözü isə qiymətləndirmədən daha çox hər bir xalqa məxsus sərvəti, özünəməxsusluğu, mentallığı və s. ifadə edir. Bu baxımdan “Azərbaycanda milli ideologiyanın yaranmasına qədərki dövrdə milli-mənəvi dəyərlərin rolu” dedikdə, Azərbaycan xalqına məxsus olan sərvətlərin, adət-ənənələrin, mədəni irsin, dini-fəlsəfi baxışların və s. ideologiyaya çevrilməsi prosesi nəticəsində bütövləşməsi, çulğalaşması və vahid xətt üzrə formalaşmasına zəmin yaradan dəyərlər nəzərdə tutulur. Bir sözlə, mənəvi dəyərlər millətin varlığını ortaya qoyan əsas faktorlardan biri olan mənəviyyatla sıx bağlı olub, insanın özünü, təmsil olunduğu etnik kimlik çərçivəsində təsdiqləməsidir. Milli-mənəvi dəyərlərin, milli sərvətlərin yaradıcısı millətin ayrı-ayrı üzvləri olsa da, həmin üzvlərin mənəvi-əxlaqi ideyaları sonralar bütövlükdə cəmiyyətin ümumi sərvətinə çevrilir. Bu, milli özünəməxsusluq, milli mentalitetdir. Məhz milli özünəməxsusluq milli ideologiyanı formalaşdıran amillərdən biridir.

Elmi-nəzəri ədəbiyyatdan məlum olduğu kimi İdeologiya - baxışların elə bir sistemidir ki, burada sırf insanların həyata baxışlar sistemi öz əksini tapmış, insanlar arasında münasibətlər, daxili və xarici münaqişələr öz yerini tutur. Belə olan tərzdə ideologiya müəyyən mənada sosial qrumların və ictimai-siyasi cərəyanların maraqlarına uyğun gələn və sosial fəaliyyət proqramını hazırlayan sosial münasibətlər sisteminin tərkib hissəsinə çevrilir. Məhz “Azərbaycançılıq” ideyası da özünün tarixi-etimoloji xüsusiyyətlərinə görə: antropoloji, etnoqrafik, sosial psixoloji, linqvistik əsaslardan ibarətdir. Hər bir dövlət öz milli maraqlarına uyğun gəlməlidir. Görkəmli tədqiqatçı Tur Xander yazırdı: “Dövlət müəyyən ideologiya əsasında fəaliyyət göstərir. Bu ideologiya milli ruha uyğun gəlirsə, deməli, o, milli dövlətdir, gəlmirsə, millətlə dövlət arasında qarşıdurma labüddür.” İstər elmi ədəbiyyatda, istərsə də ictimai mühitdə hamıya məlumdur ki, dünyanı ideyalar yaradır və məhv edir. Vaxtilə fransız filosofu Oqüst Kont demişdir: “Müasir cəmiyyətin böyük siyasi və mənəvi böhranı əvvəl-axır zehni anarxiyadan asılıdır. Bizim ən qorxulu xəstəliyimiz həyatın bütün əsas məsələlərinə münasibətdə beyinlərdə dərin fikir ayrılığının olmasıdır, halbuki bu məsələlərdə şübhəli münasibət həqiqi qayda-qanunun birinci şərtidir.” Bu ideyaları həyata keçirən də möhkəm iradəyə malik olan liderlərdir”.

Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra siyasi mədəniyyət mücərrəd bir proses kimi, məkan və zamandan asılı olmayaraq formalaşır. Sosial reallıq, cəmiyyətdəki və şəxsiyyətlər arasındakı münasibətlər, mənəvi və əxlaqi dəyərlər sistemi, ictimai rəy və ənənələr siyasi mədəniyyətin formalaşmasına təsir göstərən amillərdir. Siyasi mədəniyyət sistem daxilində siyasi təsisatların qarşılıqlı münasibətlərini, eləcə də onların sosial sistemin başqa ünsürləri ilə əlaqələrini normalar, dəyərlər, ənənələr vasitəsilə tənzimləyir. Siyasi mədəniyyətin inkişafının ən mühüm şərtlərindən biri siyasi plüralizmin həyat normasına çevrilməsinə geniş imkan yaradılması və digəri aşkarlığın genişlənməsidir. Liderlərin ictimai-siyasi fəaliyyəti nəticəsində siyasi mədəniyyət formalaşır.

Yüksək səviyyədə inkişaf edən siyasi mədəniyyətli cəmiyyətlərə aşkarlıq və plüralizm, şəxsiyyətin yüksək siyasi mədəniyyəti, siyasi fəallıq, xalqın siyasi həyatda iştirakının təmin olunması, vətəndaşların hüquq və azadlıqlarının qorunması və s. xasdır. Deməli, siyasi mədəniyyət yalnız bilik və inam şəklində deyil, habelə, vərdiş və davranış normaları, onların siyasi həyatda tətbiq olunmasını bacarmaq şəklində mövcuddur. Xalqın müxtəlif səviyyələrdə siyasi fəaliyyətdə iştirakı idarəetmənin demokratik stilinin yaranıb formalaşmasına səbəb olur. Siyasi mədəniyyətə tələbat - siyasi biliklərə və siyasi informasiyalara olan tələbatdır.

Azərbaycanda siyasi mədəniyyət plüralizmin geniş dairəsini əhatə edərək formalaşmışdır. Hələ vaxtilə ulu öndər Heydər Əliyevin vətəndaş cəmiyyəti uğrunda etdiyi çağırışlar və apardığı siyasət Azərbaycanda müasir vətəndaş cəmiyyətinin formalaşmasını sürətləndirdi. Sovet totalitarizmindən çıxmış Azərbaycan cəmiyyətinin yeni siyasi mədəniyyəti formalaşmağa başladı. SSRİ-nin dağılması prosesində ən gərgin şəraitlərlə üzləşmiş Azərbaycanda siyasi mədəniyyət stabil şəkil aldı. Azərbaycanda siyasi mədəniyyətin formalaşması prosesində ulu öndər Heydər Əliyevin nəzəri və praktiki siyasi fəaliyyəti olduqca böyükdür. Əsasən, Azərbaycanın müstəqillik əldə etməsindən sonra formalaşan siyasi mədəniyyət Azərbaycançılıq kontekstində özünün fərqli xüsusiyyətləri ilə seçilir. Azərbaycanın siyasi mədəniyyəti özünün dövlətçiliyə möhkəm sədaqət, rəhbərin güclü tərəflərini tez müəyyənləşdirmək və populizmə tez məruz qalmamaq məharəti ilə seçilməyə başlamışdır. Azərbaycançılıq ideyasının bu prosesdə xüsusi rolu vardır.

Müasir Azərbaycanın sosial-siyasi həyatında əsaslı islahatlar həyata keçirilməkdə və ölkə müasirlik yolunda böyük uğurlar əldə etməkdədir. Nəticə etibarilə yeni siyasi mədəniyyət formalaşmışdır. Azərbaycanda daha davamlı siyasi mədəniyyətin formalaşması həm ölkəmiz, eləcə də, region üçün böyük müsbət əhəmiyyətli proseslərin başlanğıcıdır. Azərbaycanın dövlət rəmzlərinin qorunması, Konstitusiyaya edilən əlavə və dəyişikliklərlə referendum yolu ilə qəbul olunması da ölkəmizdə siyasi mədəniyyətin inkişafında yeni mərhələnin göstəricisidir.

Beləliklə, Azərbaycanda siyasi mədəniyyət siyasi sistemin tərkib hissəsi kimi vətəndaş cəmiyyətinin mühüm əlamətlərindən biridir. Ölkəmizdə siyasi sistem və vətəndaş cəmiyyəti özündə yetkin siyasi mədəniyyəti əks etdirir ki, siyasi mədəniyyətin formal olması da insanların sosiallaşması yolu ilə həyata keçirilir. Bu prosesdə şəxsiyyətin rolu danılmazdır. Bu dəyərlərdən ən mühümü də Heydər Əliyev fenomenidir.

Azərbaycançılıq ideyasının siyasi ideologiyaya çevrilməsində ulu öndər Heydər Əliyevin əvəzsiz xidməti olmuşdur. Heydər Əliyev müstəqil dövləti idarə etdiyi zaman Azərbaycançılıq ideologiyasının siyasi, elmi-nəzəri və praktiki əsaslarını işləməklə onu dövlət ideologiyasına çevirə bilmişdir. Azərbaycançılıq ideologiyası çox dərin tarixi köklərə bağlı olduğu üçün ideya-siyasi məzmunu, onun ideologiya imkanları çox genişdir. Azərbaycançılığın siyasi ideologiya kimi fərdi və ictimai şüura, insanların davranışına, hərəkətlərinə mühüm təsir göstərdiyini, bunun isə öz növbəsində dövlətin inkişaf modelinin təkmilləşdirilməsini stimullaşdırdığını qeyd edən akademik Ramiz Mehdiyev yazır: “Azərbaycanda sintetik yeniliklərə açıq olan, konstruktiv rol oynayan inkişaf ideologiyası formalaşdı. Tarixən məlum olduğu kimi XX əsrdə Azərbaycan özünün iki dəfə müstəqilliyini əldə etmişdir. Məhz uzunömürlü dünya durduqca yaşayacaq və XX əsrin sonunda öz istiqlal arzusunu gerçəkləşdirən, ulu öndər Heydər Əliyevin yaratdığı müstəqil Azərbaycan dövləti görkəmli şəxsiyyətin arzularının gerçəkləşməsidir. Müstəqillik dövrünün qısa tarixi ümummilli lider Heydər Əliyevin belə bir fikrini təsdiq edir ki, “müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir.”

Ümummilli lider Heydər Əliyevin ən böyük xidmətlərindən biri təzəcə yaranan diasporun təməl daşı olan Azərbaycançılıq ideologiyasının müstəqil Azərbaycan dövlətinin ideya-siyasi dayağına çevirməsidir. 1997-ci ildə Heydər Əliyev ABŞ-a rəsmi səfəri zamanı Azərbaycan diasporu qarşısında çıxışında bu istiqamətdə əsas prinsipləri müəyyən etmişdir: “Siz düşünməyin ki, Azərbaycan bizim üçün nə edib, düşünün ki, biz Azərbaycan üçün nə etmişik. Onda Azərbaycan da irəli gedər, Azərbaycan diasporu da inkişaf edər... Harada doğulmağın fərqi yoxdur, əsas odur ki, sən azərbaycanlısan, Azərbaycan dilinin, mədəniyyətinin daşıyıcısısan”. Özünün sələflərinin milliyyətçilik, milli məfkurəçilik ideyalarına sadiq qalan Heydər Əliyev “Azərbaycançılıq” ideologiyasını təkmilləşdirib onu dövlətin məzmununun əsasına çevirmişdir. Məhz bu ideologiya minlərlə azərbaycanlını öz ətrafında vahid bir xalq kimi birləşdirir və Yer kürəsinin bütün dövlətləri və xalqlarına Azərbaycan adlı bir dövlətin varlığı və inkişafından xəbər verir. Məhz “Azərbaycançılıq” ideologiyası Heydər Əliyevin milli-ideoloji baxışlar sistemidə respublikamızın dövlətçilik sahəsində əldə etdiyi ən qiymətli mənəvi-ideoloji sərvətlərindən birinə çevrilmişdir. Heydər Əliyevi simasında əldə olunan dövlətçilik “Azərbaycançılıq” ideoloji baxışlar sistemində elmi-nəzəri konsepsiya səviyyəsinə qalxmışdır. Azərbaycançılıq ideologiyasını Azərbaycan xalqının milli-etnik xüsusiyyətlərinə, müasir dövrün tələblərinə və dünyanın müasir şəraitinə uyğunlaşdıran Heydər Əliyevi dövrün, zamanın tələblərini, dövlətçiliyin əsaslarını, milli-etnik şəraiti nəzərə alan milli təlimin banisi hesab etmək olar. Az bir zamanda Azərbaycançılıq ideologiyası dövrünün mükəmməl bir ideoloji təliminə çevrildi.

**(davamı 3-cü səhifədə)**

# AZƏRBAYCANIN İNKİŞAFINA HƏSR OLUNMUŞ HƏYAT

**Azərbaycanın tarixində hər birinin öz yeri olan dahi şəxsiyyətlərimiz dövlətçilik ənənələrimizin yaşamasında, ölkəmizin intibahında misilsiz xidmətlər göstərmişlər. Bu sırada ümummilli liderlik zirvəsinə ucalan yalnız Heydər Əliyev olmuşdur. Qüdrətli, dahi şəxsiyyət Heydər Əliyevin siyasi obrazı xalqımızın dövlətçilik şüurunun, tarixin sınağından şərəflə çıxmış bütöv bir idarəçilik məktəbinin, müasir ictimai-siyasi fikrin ən canlı təcəssümüdür. Ötən əsrin 60-cı illərinin sonunda ulu öndər Heydər Əliyevin Azərbaycanda siyasi rəhbərliyə irəli çəkilməsi xalqda özünün zəngin dövlətçilik ənənələri əsasında gələcək müstəqilliyinə etibarlı zəmin formalaşdırdı. 1993-cü ildə yenidən ölkə rəhbərliyinə qayıdan dahi Heydər Əliyev öz müdrik siyasəti, dönməz əqidəsi, tarixi uzaqgörənliyi ilə milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail oldu.**



1993-cü ildə xalqın istəyi və təkidli tələbi ilə hakimiyyətə gələn Heydər Əliyev o dövrdə Azərbaycanda baş alıb gedən böhranın, siyasi hakimiyyətsizliyin, vətəndaş qarşıdurması və digər xoşagəlməz ünsürlərin qarşısını aldı, Azərbaycanı bir dövlət kimi məhv olmaqdan, dünya xəritəsindən silinməyin real təhlükəsindən xilas etdi. Ulu öndər qısa müddətdə sabitliyi bərpa etdi, cəbhə bölgəsində uzunmüddətli atəşkəsə nail oldu, siyasi-iqtisadi böhran aradan qalxdı. Ölkədə mütərəqqi dövlət quruculuğu və iqtisadi islahatların aparılması işləri sürətlə həyata keçirilməyə başladı. O dövrdə çoxşaxəli iqtisadiyyatın yaradılması, özəlləşdirmə və torpaq islahatı, maliyyə-vergi və idarəetmə sistemlərinin islahatı, bazar münasibətlərinin genişlənməsi - bütün bu tədbirlər Heydər Əliyevin gərgin əməyi və müstəsna şəxsi rolu sayəsində mümkün olmuşdur.

Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində, milli sərvətlərimizdən xalqın mənafeyinə uyğun istifadə olunmasında Heydər Əliyevin uğurlu neft strategiyası xüsusi əhəmiyyət kəsb etdi. 1994-cü il sentyabrın 20-də dünyanın ən iri neft şirkətləri ilə imzalanmış "Əsrin müqaviləsi", 1999-cu il noyabrın 18-də ATƏT-in İstanbul zirvə toplantısında Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin inşa olunmasına dair bağlanmış saziş Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsində müstəsna rol oynamışdır. Bu gün Azərbaycana böyük uğurlar gətirən neft strategiyasının əsas mahiyyəti ölkənin malik olduğu təbii sərvətlərdən Azərbaycan xalqının rifahı naminə uğurlu şəkildə istifadəyə əsaslanır.

Ümummilli liderimizin dövlət quruculuğundakı xidmətləri də əvəzsizdir. Heydər Əliyev demokratik və hüquqi islahatları ardıcıl olaraq həyata keçirdi. O, hər şeydən öncə, insan hüquq və azadlıqlarının təminatı məsələlərinə xüsusi diqqət yetirirdi.

Ulu öndərin rəhbərliyi ilə hazırlanaraq, dünyada mövcud olan ən mütərəqqi hüquqi normaları özündə əks etdirən, 1995-ci ilin 12 noyabrında ümumxalq referendumu yolu ilə qəbul olunmuş Azərbaycanın ilk Milli Konstitusiyası ölkəmizin gələcək inkişaf yolu və istiqamətlərini müəyyən etmiş, siyasi və iqtisadi islahatların möhkəm bazisinə çevrilmişdir. Yeni Konstitusiyanın qəbulundan sonra müstəqil Azərbaycanda çoxpartiyalı sistem, siyasi plüralizm, söz azadlığı bərqərar olmuş, məhkəmə-hüquq islahatları davam etdirilmişdir. Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsi, Konstitusiya Məhkəməsinin fəaliyyətə başlaması və digər mühüm işlər ölkəmizin demokratik inkişaf yolunda əldə etdiyi ən böyük dəyərlərdəndir. Azərbaycanın ilk Milli Konstitusiyasında mənəvi sərvətlərimizə, dinimizə, tarixi irsimizə hörmət dövlət səviyyəsinə qaldırıldı. Bununla da milli dövlətçilik, demokratiya və dünyəvilik kimi ümumbəşəri dəyərləri özündə ehtiva edən yeni milli ideologiyanın əsası qoyuldu.

Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanın memarı və böyük dövlət xadimi kimi ən mühüm missiyanı gerçəkləşdirərək yeni tariximizi öz əlləri ilə yazdı. Onun həyatı və fəaliyyəti Azərbaycan tarixinin bir hissəsi və ən şanlı səhifələrindəndir. Heydər Əliyev özünün şərəfli fəaliyyətində xalqına arxalandığı kimi, xalq da öz taleyini ona etibar edir, ulu öndərə arxalanırdı. Bu inamın, etibarın nəticəsidir ki, ölkəmiz müstəqillik əldə etdikdən sonra ən ağır günlərində xalq yalnız onu axtarmış, ona pənah aparmışdı. Böhranlı məqamda xalqının səsinə səs vermiş, ölkəni müstəqilliyini yenidən itirmək təhlükəsindən xilas edərək Azərbaycanı sabit və inkişaf edən dövlətə çevirmişdir. Heydər Əliyev də həmişə xalqa arxalanırdı. O bu barədə deyib: **"Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib".**

Ulu öndərimizin titanik fəaliyyətinin digər nəticəsi Azərbaycanın beynəlxalq aləmdə özünəlayiq yer tutması, dünyanın ən inkişaf etmiş dövlətləri ilə ikitərəfli əlaqələr çərçivəsində bərabərhüquqlu əməkdaşlığa nail olmasıdır. Ardıcıl, düşünülmüş xarici siyasət kursu Azərbaycan dövlətinə demokratik dəyərləri hər şeydən uca tutan, dünya ölkələri ilə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri quran, qonşuları ilə dinc şəraitdə yaşamağa üstünlük verən sülhsevər ölkə imicini qazandırmışdır. Məhz ümummilli liderimizin gərgin səyləri və yenilməz iradəsi nəticəsində Azərbaycan bu gün dünya birliyi tərəfindən iqtisadi gücü və imkanları ilə yanaşı, mədəni, elmi, intellektual potensiala malik ölkə kimi qəbul olunur. İndi dünyanın böyük və qüdrətli dövlətləri regionla bağlı bir çox məsələlərin həllində Azərbaycanın dəstəyinə arxalanır, onunla etibarlı tərəfdaş kimi hesablaşırlar. Təsadüfi deyil ki, bu gün müstəqil ölkəmiz BMT, ATƏT, Avropa Şurası, İslam Konfransı Təşkilatı və digər beynəlxalq təşkilatların üzvüdür. NATO və Avropa Birliyi ilə səmərəli və işgüzar əlaqələr qurub. O inkişafın davamıdır ki, bu gün müstəqil Azərbaycan dünya miqyasında qüdrətli, etibarlı tərəfdaş, dinamik inkişaf edən ölkə imici qazanıb.

Dahi Heydər Əliyevin öz xalqı qarşısında ən böyük tarixi xidmətlərindən biri də müəyyənləşdirdiyi inkişaf kursunu, milli inkişaf strategiyasını və siyasi kursunu özündən sonra inam və ardıcıllıqla davam etdirə biləcək layiqli siyasi varis yetişdirməsidir. Heydər Əliyev 2003-cü ilin oktyabrında xalqa ünvanladığı tarixi müraciətində demişdir: **"İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".** Bu gün qürurla deyə bilərik ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev ulu öndərin siyasi-iqtisadi kursunu qloballaşan dünyanın tələblərinə uyğun istifadə edərək uğurla davam etdirir. Cənab İlham Əliyev bu gün dünyada böyük nüfuza və hörmətə malik siyasətçi, təcrübəli dövlət rəhbəridir. Onun rəhbərliyi ilə müstəqil Azərbaycan inkişaf etmiş dövlətlər sırasındadır, iqtisadi artıma görə dünya lider mövqedədir. "Mən hər bir azərbaycanlının Prezidenti olacağam", - deyən İlham Əliyev, doğrudan da, hər bir azərbaycanlının Prezidenti oldu. Cənab Prezident ölkə rəhbəri kimi, fəaliyyətə başladığı ilk gündən dəfələrlə vurğulayıb ki, Azərbaycanda Heydər Əliyev siyasi-iqtisadi inkişaf kursu davam etdiriləcək, bu kursa alternativ yoxdur. Çünki bu kurs inkişaf və tərəqqi yoludur. Bu siyasi kurs Azərbaycanın müstəqilliyinə, dövlət müstəqilliyimizin əbədi, dönməz xarakter daşımasına təminat verir.

Heydər Əliyev Azərbaycana rəhbərliyinin hər iki dönəmində bütün sahələrlə bərabər, iqtisadiyyatın ən aparıcı sahələrindən biri olan ölkə nəqliyyat sektoruna, o cümlədən dəmir yolunun inkişafına və onun müasir standartlar səviyyəsində olmasına daim diqqət və qayğı göstərmişdir. Müstəqilliyimizin ilk illərində böyük çətinliklərlə üzləşən və demək olar ki, iflic vəziyyətinə düşən Azərbaycanın yol-nəqliyyat sektoru dərin böhran, tənəzzül içərisində idi. O vaxtkı, səriştəsiz rəhbərlər bu sahənin inkişafı üçün heç bir iş görməmişdir. Yalnız Heydər Əliyevin ölkə rəhbərliyinə gəlişindən sonra nəqliyyat sektorunda yeni inkişaf mərhələsi başladı. Az bir zamanda infrastrukturun yeniləşməsi işlərinə start verildi. Çünki Heydər Əliyev bilirdi ki, ölkənin müasir nəqliyyat sisteminin olması iqtisadi inkişafımız üçün əsas şərtlərdəndir. Bu barədə ulu öndər demişdir: "Yol iqtisadi inkişafımızın əsas amillərindən biridir. Əgər müasir infrastruktur, yol olmasa, iqtisadiyyat inkişaf edə bilməz". Təsadüfi deyil ki, dəmir yollarını iqtisadiyyatın şah damarı adlandırırlar. Azərbaycanın yerləşdiyi coğrafi ərazi, güclü iqtisadiyyatı, iqtisadi əlaqələri hər sahədə olduğu kimi, dəmir yolu nəqliyyatının sürətli inkişafı üçün də münbit şərait yaratmışdır. Əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş köklü islahatların davam etdirilməsi bu sahədə yeni inkişaf mərhələsinin başlanğıcına səbəb olmuşdur.

Son illər Azərbaycan Prezidenti cənab İlham Əliyevin səyi nəticəsində ölkəmizin dəmir yolu infrastrukturu yeniləri qurulur, müasirləşir, maddi-texniki bazası möhkəmləndirilir. Bu gün son üç ildə aparılan köklü islahatlar öz müsbət nəticəsini vermiş, ölkə dəmir yolu nəqliyyatı müasir standartlara uyğunlaşdırılmışdır. Azərbaycan həm regionda, həm də dünyada logistik mərkəzə çevrilib, qurumun tarixində yeni era başlayıb. Avropa ilə Asiyanın kəsişməsində yerləşən Azərbaycanın nəqliyyat qurumları, o cümlədən dəmir yolu beynəlxalq layihələrin reallaşması prosesində aktiv iştirak edir. Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi Azərbaycanın nəqliyyat sahəsində həyata keçirdiyi ən böyük layihələrdəndir. Ötən il oktyabr ayının 30-da Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolunun açılışı münasibətilə Bakı Beynəlxalq Dəniz Ticarət Limanında təntənəli açılış mərasimi keçirildi. Açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev, Birinci vitse-prezident Mehriban Əliyeva, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Gürcüstanın, Qazaxıstanın baş nazirləri və digər ölkələrin rəsmi nümayəndələri iştirak etmişlər. İlham Əliyev qeyd edib ki, bu layihə strateji əhəmiyyətli layihədir. Bu yolun uzunluğu 850 kilometrdir, onun da 504 kilometri Azərbaycan ərazisindən keçir. Bakı-Tbilisi-Qars dəmir yolu Avropanı Asiya ilə birləşdirən ən qısa və etibarlı yoldur. Bu yol üç ölkəni və qitələri birləşdirir. Ölkəmizin önəm verdiyi beynəlxalq nəqliyyat layihələrindən biri də "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizidir. "Şimal-Cənub" dəhlizinin yaradılması da tarixi hadisədir. Bu dəhliz Şimali Avropanı Cənub-Şərqi Asiya ilə birləşdirir. Artıq Astara stansiyalarından İran İslam Respublikası dövlət sərhədinə qədər birxətli 8,3 kilometr dəmir yolunun çəkilişi və Astara çayı üzərindəki dəmir yolu körpüsünün tikintisi yekunlaşıb. İran ərazisində Astara-Rəşt dəmir yolu hissəsinin tikintisinin maliyyələşdirilməsi haqqında dövlətlərarası "Saziş" imzalanıb.

"Cənub-Qərb" Nəqliyyat Dəhlizinin fəaliyyətə başlaması istiqamətində də işlər uğurla davam etdirilir. Bu dəhliz İran, Azərbaycan, Gürcüstan, Ukrayna vasitəsilə Hindistandan Avropaya və əks istiqamətdə yüklərin daşınmasında vaxt itkisini azaldır. Bu dəhliz üzrə yük daşımalarının həyata keçirilməsinin təşkilinə artıq başlanmışdır.

Bu gün Azərbaycanın dəmir yolu sahəsində "ADY" QSC-nin sədri, millət vəkili Cavid Qurbanovun rəhbərliyi ilə ən müasir standartlara cavab verən texnologiyaların tətbiq olunması dövrü başlayıb. Enerji təchizatının sabit cərəyandan dəyişən cərəyana keçilməsi, işarəvermə və rabitə sisteminin yeniləşdirilməsi üzrə avadanlıqların alınması, yol təsərrüfatının sağlamlaşdırılması, lokomotiv və vaqon parkının yeniləşməsi üzrə bir sıra mühüm tədbirlər həyata keçirilib. Son vaxtlar dəmir yolunun lokomotiv parkının yenilənməsi istiqamətində də mühüm addımlar atılmışdır.

Ulu öndərimiz Azərbaycana rəhbərliyinin hər iki dönəmində ölkə idmanına böyük qayğı göstərmiş, idmançılarımızın dünya miqyasına yüksək yerlər tutması üçün onlara hər cür dəstək vermişdir və bu işlər bu gün davam etdirilir.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin qayğısı sahəsində ölkədə bədən tərbiyəsi sahəsində sürətlə inkişaf prosesi getmiş, bu sahədə böyük uğurlar əldə edilmişdir. Bakıda və bölgələrdə 43 Olimpiya İdman Kompleksi və İdman meydançaları tikilib istifadəyə verilmiş, mövcud idman obyektləri yenidəm qurulmuşdur. Azəbaycan bu gün dünyada idman ölkəsi kimi tanınır və Avropa səviyyəli tədbirlər ölkəmizdə keçirilir. Azərbaycan idmançıları ildən-ilə öz nəticələrini yaxşılaşdırır, daha çox medallar qazanırlar. İdmançılarımız 2004-cü il Afina Olimpiadasında 5 medal, 2008-ci il Pekin Olimpiadasında 6 medal, 2012-ci il London Olimpiadasında 10 medal (2 qızıl, 2 gümüş, 6 bürünc), 2016-cı il Rio-de Jeneyro Olimpiya Oyunlarında isə 18 medal qazanmışlar.

2015-ci ildə Azərbaycan tarixində ilk dəfə keçirilən Avropa Oyunlarına ev sahibliyi etmişdir. 50 ölkəni təmsil edən 6 min istirakçının iştirak etdiyi oyunlarda komandamız ümumi hesabda 2-ci yeri tutmuş, 21-i qızıl olmaqla 56 medal qazanmışdır. 2017-ci ilin mayında Bakıda keçirilmiş IV İslam Həmrəyliyi Oyunlarında isə ölkəmiz komanda hesabında 1-ci yerə çıxmışdır.

Azərbaycan Prezidentinin rəhbərliyi ilə 2003-cü ildən bəri ötən müddət ərzində müasir tariximizə respublikamızın iqtisadi, siyasi və mədəni inkişafının dönüş anı kimi əbədi həkk olunub. Bu dövr ərzində ölkəmiz bütün dünyada ən dinamik, davamlı inkişaf edən müstəqil ölkə kimi tanınıb və dünyaya özünün nadir iqtisadi inkişaf modelini təqdim edib. Ötən bu illər ərzində qeyd olunduğu kimi, ölkənin iqtisadi gücü xeyli yüksəlib, maliyyə imkanımız artıb. Bu gün Azərbaycan bölgənin ən güclü iqtisadiyyata malik olan ölkəsinə çevrilib. Uğurla həyata keçirilən sosial-siyasət sayəsində insanların həyat səviyyəsi yüksəlib. Yoxsulluq səviyyəsi 50 faizdən 5 faizə endirilib. 1 milyon 900 min yeni iş yerinin yaradılması nəticəsində işsizlik səviyyəsi təxminən 5 faizə endirilib. Bu dövr ərzində əməkhaqları 7 dəfə, təqaüdlər 10 dəfə və əhalinin real gəlirləri isə orta hesabla 2,6 dəfə artmışdır. Bütün sahələrdə olduğu kimi, yol nəqliyyatı, o cümlədən dəmir yolu sahəsində də böyük layihələr həyata keçirilib.

Azərbaycan iqtisadiyyatı son 15 il ərzində 3,2 dəfə artıbdır, bu, çox böyük göstəricidir. Əlbəttə ki, bu göstəricinin tərkibində neft amili xüsusi yer tutur. Ancaq bununla bərabər, bizim qeyri-neft ixracımız 15 il ərzində dörd dəfədən çox artıbdır. Bu da onu göstərir ki, bizim islahatlarımız böyük səmərə verir.

Qeyd olunduğu kimi, Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən ötən dövr ərzində bütün sahələrdə əldə olunan möhtəşəm uğurlar ulu öndərimizin möhkəm təməlini qoyduğu siyasi-iqtisadi kursa əsaslanır. 2003-cü ildən keçən 15 il ərzində Azərbaycan Prezidenti cənab İlham Əliyev bu kursa sadiq qalaraq ölkəmizi daha da inkişaf etdirmiş, bütün sahələrdə böyük uğurlar əldə olunmuş, müstəqilliyimizi möhkəmləndirərək onu əbədi və dönməz etmişdir. Cənab Prezident qeyd etmişdir ki, mən 2003-cü ildə, Prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər xalq mənə etimad göstərərsə, mən ulu öndər Heydər Əliyevin siyasətinə sadiq qalacağam, bu siyasəti davam etdirəcəyəm. Xalq mənə inandı, məni dəstəklədi və mən də öz növbəmdə sözlərimə əməl etdim. 2018-ci il növbəti Prezident seçkilərində də xalq görülən işlərə yüksək qiymət verərək mənə yenə də etimad göstərdi və buna görə doğma Azərbaycan xalqına dərin təşəkkürümü bildirirəm. Mən xalqımızı əmin etmək istəyirəm ki, bundan sonra da xalqa və Vətənə ləyaqətlə xidmət edəcəyəm.

Vurğulayım ki, çoxminlik dəmiryolçular da seçkilərdə fəal iştirak edərək Azərbaycanın firavan gələcəyinin, sürətli inkişafının təminatçısı, Heydər Əliyevin siyasi varisi cənab İlham Əliyevə yekdilliklə səs vermişlər. Çünki bu siyasi kursa alternativ yoxdur. Azərbaycanın əldə etdiyi bütün uğurlarının təməlində öz xalqının mənafeyi və maraqlarını hər şeydən üstün tutan Azərbaycan Prezidenti cənab İlham Əliyevin uğurla həyata keçirdiyi, düşünülmüş, məqsədyönlü siyasət dayanır. Bir sözlə, fəxr və qürur hissi ilə deyə bilərik ki, müstəqil Azərbaycan öz tarixinin ən möhtəşəm dövrünü yaşayır. Bu gün Azərbaycanın bütün sahələrdə əldə etdiyi böyük uğurlarının təməlində isə dahi öndərimiz Heydər Əliyevin əsasını qoyduğu strateji siyasi kurs dayanır.

**Kənan CƏFƏROV,**
**Azərbaycan Dəmir Yolları QSC Texniki Xidmət və İstismar İdarəsinin rəis müavini, YAP Nəsimi rayon təşkilatının üzvü.**

# Heydər Əliyevin "Azərbaycançılıq" konsepsiyası mentalitetimizin elmi-fəlsəfi qaynağıdır

**(əvvəli 2-ci səhifədə)**

Heydər Əliyev azərbaycançılığı bütöv bir xalqın - bütün dünyada yaşayan azərbaycanlıların, Azərbaycanla bağlılığı olan bütün soydaşlarımızın və həmvətənlərimizin söykəndiyi milli birlik platformasına çevirdi. Özündə etnolinqvistik, etnoqrafik, ədəbi, mədəni-estetik, fəlsəfi və mənəvi dəyər kimi fəaliyyət göstərən bu təlim, Heydər Əliyev dövründə və ondan sonra ciddi sosial-siyasi məzmun kəsb edərək ümumi ideyalar sisteminə - dövlət quruculuğunun ayrılmaz tərkib hissəsinə çevrildi. Məhz bu böyük şəxsiyyətin dövründə milli-ideoloji işin tərkib hissəsi sayılan Azərbaycan dilinin rəsmi dövlət statusu alması və latın qrafikasının tətbiqi, Azərbaycanın milli-mənəvi dəyərlərinin qorunması və inkişafı, Azərbaycançılıq ideyalarının, milli dəyərlərin bütün dünyada yaşayan həmvətənlərimiz arasında geniş yayılması, hər il 31 dekabrın Dünya Azərbaycanlılarının Birlik və Həmrəylik Günü kimi qeyd edilməsi və bu münasibətlə bütün xarici ölkələrdə yaşayan soydaşlarımızın iştirakı ilə təşkil edilən toplantılar, xarici səfərlər zamanı Heydər Əliyevin onlarla keçirdiyi görüşlər və s. 1993-cü ildən başlayaraq "Azərbaycançılıq" ideologiyasının dövlət səviyyəsində həyata keçirilməsinin nümunələri idi. Bu barədə Heydər Əliyev deyirdi: "Bizim hamımızın bir vətəni var - bu Azərbaycan dövlətidir. Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, dinini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla bir vurmalıdır. Təhsil ocaqlarında gənclərimizi xalqımızın mənəvi dəyərləri əsasında tərbiyələndirmək, mənəvi cəhətdən sağlam və saf insanlar tərbiyə etmək məsələsi mühüm yer tutmalıdır".

Ulu Öndər Heydər Əliyevin ictimai-siyasi görüşlərində azərbaycançılıq və milli mentalitet fəlsəfəsinin mahiyyətini dərindən aça bilən filosof-alim Qoşqar Əliyev yazır: "Heydər Əliyevin ictimai-siyasi görüşlərində işlənib hazırlanmış, ölkə əhalisinin rəğbətlə qarşıladığı azərbaycançılıq vətən amalının milli dərki kimi təqdim edilir... Heydər Əliyevin təsəvvüründə azərbaycançılıq ideologiyası milli-mənəvi sərvətlərimiz sistemində ən önəmli yer tutur və mübaliğəsiz demək olar ki, müstəqilliyin möhkəmlənməsi əqidəsində olan bütün azərbaycanlıların milli ideologiyası kimi funksional əhəmiyyət daşıyır".

Milli həmrəyliyimizin nümayişinin ən yüksək zirvələrindən biri noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi olmuşdur. Həmin tarixi tədbirdəki çıxışı bütün dünya azərbaycanlılarını məslək və ideyaca bir araya yığmaqla həqiqi mənada onları tərpətdi. Məhz Dünya azərbaycanlılarının I Qurultayındakı çıxışı hamını düşünməyə məcbur etdi: "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq", - deyən Heydər Əliyev dühası azərbaycançılığı milli ideologiyaya çevirməklə cəmiyyətin həmrəylik və bütövlüyünə, mənəvi birliyinə nail olmuşdur.

Vətənpərvərlik və dövlətçilik azərbaycançılığın mühüm əsaslarını təşkil edir. Ulu öndər milli ideologiya barədə çıxışlarının birində bu fikri çox aydın şəkildə ifadə etmişdir: "Milli ideologiya nədən ibarətdir? Birinci, dövlətçilik. Dövlətçilik bu gün və gələcəkdə bizim hər bir vətəndaşımızın, cəmiyyətin, dövlətin əsas vəzifəsidir. Dövlətçilik Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qoruyub saxlamaqdır. Azərbaycanın müstəqilliyini möhkəmləndirməkdir. Dövlətçilik hər bir vətəndaşın qəlbində olmalıdır. Ona görə hər bir vətəndaş vətənpərvərlik hissləri ilə yaşamalıdır". Heydər Əliyevin dövlətçilik, xalq və Vətənlə bağlı ən böyük nailiyyəti Azərbaycan adlı məmləkətdə yaşayan xalqların arasında multikultural ənənələrin qorunub saxlanılması və böyük bir ideologiyanın tərkib hissəsinə çevrilməsidir. Bu siyasət ümummilli lider Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə bu məsələnin hüquqi sənədlərdə, o cümlədən Azərbaycan Respublikasının Konstitusiyasında əks olunmasıdır.

Heydər Əliyev siyasi kursu - böyük bir məktəb keçmiş şəxsiyyətin həyat təcrübəsi, dünyagörüşü, zəngin dövlətçilik təlimi, siyasi-ideoloji baxışlar sistemidir. Bu elə bir təlimdir ki, keşmişin varislik əlaqələrini, tarixi inkişafın müsbət nəticələrini özündə əks etdirərək, böyük ideyalara xidmət edir.

Bu gün Azərbaycan dövləti özünün inkişaf istiqamətində böyük yeniliyin, inkişafın aparıcı xəttini davam etdirir. Bu yol çox çətin olduğu kimi, həm də şərəflidir. Azərbaycan dövləti Heydər Əliyev prinsiplərinə sadiq qalaraq, bu dahi şəxsiyyətin xalqımıza, dövlətimizə ərməğan qoyub getdiyi "Azərbaycançılıq" prinsipləri üzərində inkişaf edir və uğurlu layihələrə imza atır. Ulu öndər Heydər Əliyevi böyük siyasətçi, güclü politoloq, müdrik filosof kimi səciyyələndirən filosof-alim Səlahəddin Xəlilovun söylədiyinə görə, Ulu Öndər xüsusi fəlsəfi əsər yazmasa da, onun vahid fəlsəfi konsepsiyası, azərbaycançılığı siyasi ideologiya kimi irəli sürməsi, yazılmamış bütöv siyasi sistem olması qənaətinə gəlir: "Heydər Əliyevin çox müxtəlif sahələrə dair söylədiyi fikirlər, əslində, dərin qatlardakı vahid konsepsiyanın ayrı-ayrı təzahürləridir". Sonra müəllif Heydər Əliyevin vahid siyasi konsepsiyasının mahiyyətini və təməlini açıb göstərir: "Bu konsepsiya Azərbaycanın milli ideologiyasıdır, müasir azərbaycanlıların sosial idealı, milli-fəlsəfi dünyagörüşüdür. Azərbaycanın gerçəkliyini, onun ictimai-siyasi və mədəni-mənəvi həyatının bütün sahələrini əks etdirən mükəmməl elmi-nəzəri bir sistemdir. Bizim borcumuz onun söylədiyi fikirləri və əməli fəaliyyətini nəzəri təfəkkür səviyyəsində təhlil etməklə bu konseptual sistemin təməllərini üzə çıxarmaqdır".

Ulu öndər Heydər Əliyevin fəaliyyətinin fəlsəfi mahiyyətini açan akademik Qoşqar Əliyevin qeyd etdiyi kimi, dövlət idarəçiliyi dövründə yeritdiyi siyasətin başqa bir üstün tərkib hissəsinin liberal ideologiya olması əsla təsadüfi deyildir. Bu ideologiya, sadəcə, mücərrəd azadlığın bərqərar edilməsi olmayıb, həm də bir sıra xüsusi şərtlər, vətəndaşa məxsus olan "təbii" siyasi hüquqların və mülkiyyətçi hüquqlarını nəzərdə tutur. Minillikdə dövlətçiliyin inkişafının milli siyasət fəlsəfəsinin güclü, hüquqi və demokratik dövlət quruculuğunun tərkib hissələrini təşkil edən *üç determinant - milli ideya, şəxsiyyət və millətin məqsədyönlülüyü mühüm konseptual* mahiyyət kəsb edir. Məhz bu əsaslar üzərində bərqərar olan "Azərbaycançılıq" ideologiyası dövlətimizin təməl daşıdır.

Ümummilli liderimiz Heydər Əliyevin şəxsi nümunəsi bütün xalqımızda milli-vətənpərvərlik hissinin oyanmasında canlı örnəkdir. Milli-vətənpərvərlik hissi, ruhu, milli mənəviyyatımızın açarı, zəngin milli sərvətimiz, ruhumuz, eşqimiz, canımız, bir-birimizlə əhdü-peymanımız (B.Vahabzadə), böyük milli dəyərimiz, xalqımızın varlığını yaşadan canlı abidəmiz, "Varlıq möhürümüz" (Nizami Cəfərov) olan doğma dilimizə vətəndaş qayğısı ilə üzvi surətdə bağlıdır. Dünya Azərbaycanlılarının I Qurultayında ulu öndər Heydər Əliyevin dediyi kimi, "Bizim zəngin, böyük söz ehtiyatına malik olan gözəl dilimiz var və Mən Azərbaycan dilini sevirəm. Bu, Azərbaycanın dövlət dilidir, ölkədə Mən yalnız Azərbaycan dilində çıxış edir və danışıram, dil xalqın böyük milli sərvətidir. Bu sərvəti mənimsəmək, bu dildə səlis danışmaq, bu dili ana dili kimi sevmək lazımdır. Öz dilini bilməyən, öz dilini sevməyən adam öz tarixini yaxşı bilə bilməz. Hələ çox adamlar var ki, öz ana dilində mədəni, ədəbi dilin ifadələrindən istifadə edərək yaxşı danışmaq imkanına malik deyillər".

Ümumiyyətlə, "ümummilli" sözünün altında çox dərin elmi-fəlsəfi mahiyyət kəsb edən anlayışlar gizlənmişdir. Milli dedikdə, hər bir millətin milli kimliyini təsdiq edən söz və ifadlərin dərin məzmunu başa düşülür: milli-mənəvi dəyərlər, milli mentalitet, milli özünüdərk və s. kimi millətin özünəməxsusluğu nəzərdə tutulur. Ulu öndər Heydər Əliyev deyirdi: "Bizim milli-mənəvi dəyərlərimiz, bizim tarixi milli köklərimiz, bizim dilimiz və dinimiz - hamısı bizim milli ideologiyamızın böyük bir hissəsidir, böyük bir qoludur".

Azərbaycançılıq ideologiyasını Azərbaycan xalqının milli-etnik xüsusiyyətlərinə, müasir dövrün tələblərinə və dünyanın müasir şəraitinə uyğunlaşdıran Heydər Əliyevi dövrün, zamanın tələblərini, dövlətçiliyin əsaslarını, milli-etnik şəraiti nəzərə alan milli təlimin banisi hesab etmək olar. Az bir zamanda Azərbaycançılıq ideologiyası dövrünün mükəmməl bir ideoloji təliminə çevrildi.

Heydər Əliyev azərbaycançılığı bütöv bir xalqın - bütün dünyada yaşayan azərbaycanlıların, Azərbaycanla bağlılığı olan bütün soydaşlarımızın və həmvətənlərimizin söykəndiyi milli birlik platformasına çevirdi. Özündə etnolinqvistik, etnoqrafik, ədəbi, mədəni-estetik, fəlsəfi və mənəvi dəyər kimi fəaliyyət göstərən bu təlim, Heydər Əliyev dövründə və ondan sonra ciddi sosial-siyasi məzmun kəsb edərək ümumi ideyalar sisteminə - dövlət quruculuğunun ayrılmaz tərkib hissəsinə çevrildi.

Azərbaycançılıq müstəqil Azərbaycan Respublikasının bütövlüyü uğrunda birgə mübarizənin tarixi təcrübəsidir. "Azərbaycançılıq" deyəndə qarşılıqlı əlaqə, möhkəm birlik, vətəndaş cəmiyyəti, böyük bir dövlətin təməl daşı nəzərdə tutulur.

Azərbaycan xalqının milli xarakteri və mentalitetinin təsiri altında formalaşan milli ideologiyanı - "Azərbaycançılıq" ideologiyası ulu öndər Heydər Əliyevin simasında özünün milli özünüdərki, milli mentalitetinin mayasını təşkil edir. Məlumdur ki, milli-siyasi mentalitetin yaradıcısı xalq və siyasi elitadır. Məhz xalqa söykənən, onun milli-mənəvi dəyərlərinə bağlı olan xalq siyasi elita tərəfindən dəstəklənəndə bu dəyərlərin siyasiləşməsi və onun böyük qoruyucusuna çevrilməsi faktı aşkara çıxır. Ulu öndər Heydər Əliyev milli varlığımızın ideya təməli olan azərbaycançılıq haqqında, Azərbaycan mentaliteti haqda demişdir: "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə, mentalitetinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adətlərini yaşatmalıyıq". Azərbaycançılıq elə bir meyardır ki, hər bir azərbaycanlı bunun vasitəsilə özünü qavrayışını, identikliyini qiymətləndirir. Öz tarixi yaddaşına hörmətlə yanaşır, Vətən amalını uca tutur. Azərbaycançılıq ideyası özünüidentifikasiya üçün fəlsəfi örnəkdir, dövlətçilik, müstəqillik ideyalarını ehtiva edən mentalitetimizi saflaşdıran ideologiyadır.

Vaxtilə Şərqin böyük mütəfəkkirlərindən sayılan Əbu Turxan demişdir: "Böyük şəxsiyyətlər tarixin sütunlarıdır. Onlar nə qədər möhkəm olsa, cəmiyyətin inkişafı da bir o qədər dayanıqlı olur." Məhz Heydər Əliyev belə şəxsiyyətlərdən olmuşdur. Ulu öndər hakimiyyətə gələndən sonra dövlətçilik prinsiplərinin həyata keçirilməsi istiqamətində, milli ideologiya sahəsindəki boşluğu görərək onu öz təcrübə və siyasi bilikləri ilə doldurmağa çalışırdı: "Hazırkı keçid dövründə uzun illər ərzində mövcud olmuş sistemlər dağıdılmış, ancaq bunun yerində onlardan üstünü qurulmamışdır. Son illərdə biz nəyin nə olduğunu anlamağa başladıq. Bu ağır dövrdən düzgün nəticələr çıxarmağın vaxtı çatmışdır... İndiki ideyamız milli, tarixi ənənələrimiz, ulu babalarımızın yaratdığı ümumbəşəri dəyərlər əsasında formalaşdırılmalı və inkişaf etdirilməlidir. "Müstəqilliyimizin ilk illərinin təcrübəsi bu boşluğun fəsadlarını dövlətə və cəmiyyətə aydın şəkildə sübut etdi. Məhz bu boşluğun yerini dolduran Heydər Əliyevin uzaqgörən siyasəti və dövlətə, xalqa olan məhəbbəti olmuşdur. Bu zərurətdən yaranıb formalaşan "Azərbaycançılıq" ideologiyası Azərbaycan Respublikasının bazisi və təməl daşı olmuşdur.

Ulu öndər Heydər Əliyevin dünya inteqrasiya proseslərinə "müstəqilliyimiz əbədidir" idealı ilə çıxış etməsi onun bu xalqa olan məhəbbəti, dövləti idarə etmək bacarığı və əzmkarlığıdır".

Bu gün ulu öndərin vaxtında irəli sürdüyü "Müstəqilliyimiz əbədidir" sözləri milli həyat fəlsəfəsinin əsasını təşkil edir. Bu əsasda Heydər Əliyev güclü dövlət yaratmağın vacibliyini dərk edərək deyirdi: "Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olur". Budur, Heydər Əliyevin dövlətçilik zəkasının, amalının, məqsədyönlü fəaliyyətinin, siyasətçilik peşəkarlığının, analitik düşüncəsinin fəlsəfi ruhu! Məhz bu kəlam milli mentalitetimizin mayası, siyasi mentallığı formalaşdıran ideologiyanın əsasını təşkil edir. Vaxtilə Azərbaycan dövlətçilik tarixində yeni səhifələr açan Heydər Əliyev yazıçı A.Proxanova verdiyi müsahibədə cəmiyyətlə dövlətin birliyini nümayiş etdirən ideya haqqında çox müdrikcəsinə demişdir: "Xalqa xidmət elə, xalqın yolunda özünü fəda elə. Bax, budur ideya, budur fəlsəfə!" Bu ideya "Azərbaycançılıq" konsepsiyasının mayası və fəlsəfəsidir.

**Sahibə ƏLİYEVA,**
**fəlsəfə üzrə fəlsəfə doktoru.**

# OĞUZ YURDU GORANBOY İNKİŞAF VƏ TƏRƏQQİ DÖVRÜNÜ YAŞAYIR

**Mən Goranboyun inkişafı naminə və rayonun problemlərinin həlli üçün əlimdən gələni əsirgəməyəcəm.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**



Dünya iqtisadiyyatında böhranlı vəziyyətin yaşandığı bir zamanda ölkəmiz öz yolu ilə gedir, öz siyasətini aparır. Ona görə də bu gün Azərbaycanda inkişaf və sabitlik var. Sevindirici hal ondan ibarətdir ki, bunun qarşılığında sənaye potensialı artmış, qeyri-neft sektorunda dinamik inkişaf qabarıq görünür. Kənd təsərrüfatı sahəsində aparılan siyasət, həyata keçirilən islahatlar bunu deməyə əsas verir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müəyyənləşdirdiyi sosial-iqtisadi inkişaf siyasətinin prioritet istiqamətlərindən biri iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun dinamik inkişafının təmin edilməsi, rəqabətqabiliyyətliliyin artırılması və həmin sahəyə investisiya qoyuluşunun sürətləndirilməsidir. Bu siyasətə uyğun görülən işlərin nəticəsidir ki, son illərdə Ümumi Daxili Məhsulun (ÜDM) artımı qeyri-neft sektoru hesabına təmin edilir, rəqabətədavamlı məhsul istehsalı durmadan artır. Bu gün müstəqil Azərbaycan dövlətinin öz siyasi dəst-xətti, dövlətçilik siması, inkişaf yolu var. Ötən illərdə respublikanın milli inkişaf strategiyası, siyasi-iqtisadi, mədəni-mənəvi təkamül konsepsiyası, vahid ideologiyası formalaşmışdır. Ölkəmizdə əhalinin sosial şəraitini daha da yaxşılaşdırmaq, infrastrukturu yeniləşdirmək, müasir müəssisələr, yeni iş yerləri yaratmaq istiqamətində sistemli tədbirlərin həyata keçirilməsi vəzifəsini irəli sürən regional dövlət proqramları ölkəmizin uzunmüddətli və hərtərəfli inkişaf konsepsiyasını reallaşdırıb.



Respublikamızda pambıqçılığın, baramaçılığın, tütünçülüyün, çayçılığın və heyvandarlığın inkişafı ilə bağlı ciddi işlər aparılır və ölkəyə valyuta gətirəcək kənd təsərrüfatı məhsullarının istehsalının genişləndirilməsi, xüsusilə də turizmin inkişafı mühüm əhəmiyyət kəsb edir. Bundan əlavə, meliorasiya tədbirlərinin gücləndirilməsi, sahibkarlara güzəştli kreditlərin verilməsi, ailə bizneslərinin inkişaf etdirilməsi əsas hədəflərdəndir. Əminliklə demək olar ki, respublikamız cənab İlham Əliyevin rəhbərliyi altında öz inkişaf tempini daha da sürətləndirəcək və davamlı iqtisadi inkişafa hesablanan islahatlar hesabına ölkəmiz daha da güclənəcək. Azərbaycanın hər bir guşəsində aparılan abadlıq, tərəqqi və yüksəliş, qədim Oğuz yurdu Goranboyda da daha aydın görünür. Xidmət və infrastruktur sahələrinin yeniləşməsi, müasir dövrün tələblərinə uyğunlaşdırılması hədəf hesab olunmuş, uğurla icra olunmaqdadır. Rayonda həyata keçirilmiş çoxsahəli tədbirlər sistemi həm kəmiyyət, həm də keyfiyyət göstəricilərinə görə miqyaslı, konkret və ünvanlı olması ilə diqqəti çəkir. Mövcud sənaye müəssisələrində istehsal gücünün artırılması, yeni müəssisələrin işə salınması şəhərdə iqtisadiyyatın yüksəlməsinə güclü təkan vermişdir, bu sıçrayışlı inkişafı rayonun simasını tam dəyişmişdir. Rayonda aparılan genişmiqyaslı tikinti, abadlıq və quruculuq işləri, sözün əsl mənasında təqdirəlayiqdir. Sahibkarlıq inkişaf etmiş, yeni müəssisələr yaradılmış, məktəblər, bağçalar, müalicə ocaqları tikilmiş, əsaslı surətdə təmir olunmuş, yeni yollar çəkilmişdir. Hər yerdə yüksək dizaynla inşa edilmiş binalar, gözoxşayan park və istirahət mərkəzləri, qədim ornament və elementləri ilə işlənmiş sosial və ticarət obyektlər bir-birini tamamlayır və şəhərə xüsusi gözəllik verir.

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Goranboy rayonuna daim diqqət və qayğı sayəsində, rayon rəhbəri — Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Nizaməddin Quliyevin apardığı məqsədyönlü, ardıcıl tədbirlər, qədirbilən goranboyluların qurub-yaratmaq əzmini daha da gücləndirmiş, bu isə öz bəhrəsini vermişdir.**




Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Goranboy rayonuna sonuncu, 6-cı səfəri olduqca əlamətdar olmuşdur. İyunun 5-də cənab Prezidentin Bayraq Muzeyinin açılışında iştirak etməsi onun dövlət atributlarına xüsusi ehtiramla yanaşdığını bir daha sübut edir. Belə muzeylərin yaradılması ilə bağlı icra olunan layihələrin bütün bölgələrimizi əhatə etməsi yeniyetmə və gənclərimizdə yüksək vətənpərvərlik duyğuları aşılamaqla yanaşı, üçrəngli bayrağımıza olan sevgini daha da artırır. Müasir memarlıq üslubunda inşa edilmiş Bayraq Muzeyi, 72 metr hündürlüyündə quraşdırılmış Dövlət Bayrağı şəhərə gözəllik verir. Bayraq Meydanında 930 kvadratmetr tamet düzülmüş, yeni gül kolları əkilmiş, yaşıllıq salınmış, ərazidə 18 ədəd yeni işıqlandırma dirəyi quraşdırılmışdır.

Cənab Prezident səfər zamanı 14 km uzunluğunda Dəliməmmədli-Quşçular-Fəxralı-Qurbanzadə-Alpout və uzunluğu 20 km olan Dəliməmmədli-Muzdurlar-Qırıqlı avtomobil yollarının açılışında iştirak etmişdir.

Dövlət başçısının tapşırıq və göstərişlərinə əsasən son illərdə kənd yollarının yenidən qurulması, mövcud yolların müasir səviyyəyə çatdırılması istiqamətində mühüm layihələr icra olunur. Belə ki, 27 min əhalinin yaşadığı 20 yaşayış məntəqəsini birləşdirən avtomobil yollarının istismara verilməsi rayon mərkəzi ilə kəndlərin nəqliyyat əlaqələrini əhəmiyyətli dərəcədə yaxşılaşdırmış, bölgədə iqtisadiyyatın və kənd təsərrüfatının inkişafına güclü təkan vermişdir.

Səfər zamanı cənab Prezident "Region Aqropark"da görülmüş işlərlə də tanış olmuşdur. Goranboy və Samux rayonlarının inzibati ərazisində yerləşən "Boz dağ" massivində yaradılmış "Region Aqropark"da qısa müddət ərzində mühüm işlər görülmüşdür. Bura Şəmkir maşın kanalından 12,1 km su kəməri çəkilmiş, su anbarları inşa edilmiş, müasir suvarma sistemləri quraşdırılmışdır. Meyvə bağları salınmış, pambıq, buğda, arpa, şəkər çuğunduru əkilmişdir. Burada həmçinin texniki bitkilər əkiləcək, emal müəssisələri, soyuducu anbarlar inşa ediləcək, 500 yeni iş yeri yaradılacaqdır. Bəli, artıq "Region Aqropark" öz nəticələrini verməkdədir.

Ölkə Prezidentinin xeyir-duası ilə hər biri 40 meqavat amper olan iki transformatorun quraşdırıldığı 110/35/10 kilovoltluq "Dəliməmmədli" yarımstansiyası rayonun keyfiyyətli, dayanıqlı və fasiləsiz elektrik təchizatını tam formalaşdırmağa imkan verir. Eyni zamanda Şəmkir-Samux-Goranboy magistral suvarma kanalının ikinci növbəsinin İpək Yolu ilə kəsişmə qurğusunun və ondan sonrakı 4,95 kilometrlik hissəsinin istifadəyə verilməsi ilə Goranboy rayonunda daha 8 min hektar sahəyə suvarma suyunun verilməsi təmin edilib. Açılış mərasimində dövlət başçısı diqqətə çatdırmışdır ki, "biz bu kanalı uzatmalıyıq. Goranboyda əlavə 10 min hektar, sonra daha 20 min hektar torpaqda suvarma işlərini təşkil edəcəyik". Bütün bunlar onu göstərir ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyev Goranboy rayonunun sosial-iqtisadi inkişafına böyük diqqət yetirir.

Dövlət başçısının hər səfəri zamanı Goranboy rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsi ilə bağlı verdiyi sərəncamlar rayonda tikinti-quruculuq və abadlıq işlərinə böyük təkan vermişdir.

Goranboy şəhərində qəzalı vəziyyətdə olan çoxmərtəbəli yaşayış binalarının sakinlərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə 40 mənzilli yaşayış binasının tikintisi ilə bağlı cənab Prezidentin verdiyi sərəncam rayona göstərilən yüksək diqqət və qayğının növbəti təzahürüdür.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə ayrılmış vəsait hesabına rayon Mərkəzi xəstəxanası üçün 130 çarpayılıq müasir xəstəxana binasında son tamamlama işləri aparılır. Xəstəxana müasir tibbi aparatlarla və avadanlıqlarla təmin ediləcəkdir.

Cənab Prezidentin tapşırığı ilə Olimpiya İdman Kompleksinin tikintisi üçün 3 milyon manat vəsait ayrılmış, hazırda tikinti aparılır. Kompleksin növbəti ildə istifadəyə verilməsi nəzərdə tutulmuşdur ki, bu da rayonda idman növlərinin inkişafına güclü təkan verəcəkdir. Rayon mərkəzində xalça istehsalı emalatxanasının, Ailə və Uşaqlara Dəstək Mərkəzinin tikintisi davam edir.

Möhtərəm ölkə Prezilentinin tapşırığına əsasən rayonun şəhər və qəsəbələrində yaşayış binalarının müasir görkəmə salınması üçün xeyli işləri görülmüşdür. Belə ki, Goranboy şəhəri M.Məhərrəmov küçəsi 22 saylı yaşayış binasının dam örtüyü, fasad və həyətyanı sahələrində təmir işləri görülmüş, Goran qəsəbəsi 2, 4, 6 saylı binaları müasir görkəmə salınmış, Dəliməmmədli şəhərində 20-dək kommunal evlərin dam örtükləri dəyişdirilmiş və şəhərinin bəzi küçələri və Heydər Əliyev prospektində küçələrində səki yan daşları düzülmüşdür. Küçələrdə zövqoxşayan dekorativ ağac və gül kolları əkilmiş, Mirqalib Nağıyev, Məmməd Məhərrəmov, Cəfər Cabbarlı, Nizami, Nəriman Nərimanov küçələrinə asfalt-beton örtük salınmış, dağlıq ərazidə yerləşən Rus Borisi, Todan, Mənəşli və Erkəc kəndlərinə gedən yol cari təmir edilmişdir.

Ümumiyyətlə, ölkə Prezidentinin tapşırığına əsasən bu il də 335 yeni ictimai iş yeri açılmışdır ki, onlardan 260-ı Goranboy Mənzli-Kommunal Təsərrüfatı İstehsalat Birliyində, 75-i çoxmənzilli binanın təmirində çalışır.

Xoylu kənd tam orta məktəbin əlavə korpusu əsaslı təmir edilmişdir. Səfikürd və Balakürd kəndlərində mini stadionlar quraşdırılmış, Kələk kəndində yeni bina tikilərək 35 yerlik Körpələr evi-uşaq bağçası açılmışdır.



Ecazkar təbiəti olan Heydər Əliyev adına Mədəniyyət və istirahət parkında müasir memarlıq üslubunda inşa edilmiş 3 mərtəbəli 4000 kvadratmetr sahəsi olan möhtəşəm Heydər Əliyev Mərkəzinin qarşısında ümummilli lider Heydər Əliyevin əzəmətli abidəsi neçə-neçə sakinlərin gündəlik ziyarətgahına çevrilmişdir. Mərkəzin ərazisində müasir yaraşıqlı işıqlandırma sistemi quraşdırılmış, qışın oğlan çağında yaşıllıq zolaqların arasında boylanan gül-çiçəklər, dekorativ ağaclar və xaricdən gəlmiş əfsanəvi gül kolları mədəniyyət-istirahət parkına xüsusi gözəllik verir.

Goranboy Rayon İcra Hakimiyyətinin təşkilatçılığı və dəstəyi ilə Heydər Əliyev Mərkəzində məktəblilərin vətənpərvərlik, milli-mənəvi dəyərlərin təbliği və asudə vaxtlarının səmərəli təşkili, əlavə biliklərə yiyələnmələri məqsədilə kompüter kursları, rəsm, əl işləri (muncuqlarla) dərnəkləri, ingilis, rus dili kursları da fəaliyyət göstərir. Bu dərnək və kurslarda şagirdlərdə böyük maraq doğurmuşdur. Heydər Əliyev Mərkəzi rəsmi fəaliyyətə başladığı gündən bu günə kimi mütəmadi olaraq şəhər və kənd məktəblərinin, pedaqoji kollektivlərin, uşaq bağçalarının, idarə və müəssisə təşkilatlarının cədvəl üzrə muzeyə ekspozisiyasını təşkil edir. Bundan başqa, hər gün onlarla fərdi gəliş qeydə alınır ki, bu da rayon sakinlərinin və gələn qonaqların ulu öndərə olan sonsuz məhəbbətinin təzahürüdür. Eyni zamanda Böyük Vətən Müharibəsində və Qarabağ müharibəsində həlak olanların xatirəsi həmişə diqqətə saxlanmışdır. Belə ki, yüksək dizaynla, vətənpərvərliyi əks etdirən Abidə Kompleksi gənclərin və məktəblilərin qəhrəmanlıq simvoluna çevrilmiş, mütəmadi qərənfil dəstələri ilə yad edilir. Burada dekorativ ağaclar və fontanlar və abidə önünə qoyulmuş daimi alovlanan məşəl cəlbedici kompozisiya təşkil edir.

Dahi Azərbaycan şairi Nizami Gəncəvinin adına salınmış 4 hektar sahəsi olan istirahət parkı şəhərə gələn qonaqları məftun edir. Parkda əhalinin və şəhərə gələn qonaqların istirahəti üçün 4 ədəd əyləncə yerləri, gözoxşayan füsunkar "Şəlalə" kompleksi hər bir vətəndaşa ruhi qida verir. Burada 4000 kvadratmetr sahədə salınmış qazonlar arasına xaricdən gətirilmiş dekorativ ağaclar və gül kolları, qışın oğlan çağında zövqlə əkilmiş gül-çiçək hər bir kəsi ayaq saxlamağa məcbur edir. Xüsusi gecə görüntüsü yaratmaq məqsədilə işıqlandırma sistemi sakinlərin könlünü oxşayır. Olduqca xoşagəlimli, yayda sakinlərə sərinlik yaradan müasir stildə quraşdırılmış fontanlar sakinlərin rahatlığına xidmət edir. Bəli, ölkənin inkişafı və tərəqqisi vətəndaşların rahatlığına tuşlanmışdır. Maliyyə gəlirlərinin artması, xalqın rifah halının son dərəcədə yüksəlməsinə sərf olunur. Ölkə Prezidenti cənab İlham Əliyevin Goranboya növbəti səfəri zamanı dediyi "Mən inanıram ki, Goranboy rayonu bundan sonra da davamlı inkişaf edəcək" kəlamı bu gün reallığa çevrilmişdir. Məhz bu inkişafın bariz nümunəsidir ki, rayonda turist axını yüksəlmişdir. Turizm üçün əlverişli, əsrarəngiz təbiəti olan Gülüstan ərazisində 2 beynəlxalq standartlara cavab verən füsunkar turizm-istirahət mərkəzi fəaliyyət göstərir.




Dörd müasir, beynəlxalq standartlara cavab verən yaraşıqlı otel şəhərə gələn qonaq və turistlərin xidmətində layiqincə durur. Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən "Ölkəmizi tanıyaq" devizi ilə keçirilən maarifləndirici tur-aksiyalar çərçivəsində ölkəmizin müxtəlif guşələrindən rayona gələn məktəblilər qədim Oğuz yurdunun çox zəngin və əhəmiyyətli tarixi-memarlıq abidələri və füsunkar gözəlliyi ilə hamını valeh edən Gülüstan ərazilərində olmuş, uzun zaman xatirələrindən silinməyəcəyini bildirmişlər.

Rayonun girəcəyində təhsil şöbəsinin qarşısındakı yol dairəsində son dərəcədə diqqəti cəlb edən daimi işləyən xüsusi dizaynla işlənmiş saat qülləsi, zövqlə əkilmiş gül-çiçək, yaraşıqlı işıqlandırma sistemi rayona gələn qonaqların könlünü oxşayır. Yeni müasir standartlara uyğun, sərnişinlərin rahatlığı üçün yüksək dizaynla tikilmiş avtovağzal əhaliyə yetərincə xidmət edir. Ümumiyyətlə, rayonda regionların sosial-iqtisadi inkişafına yönəlmiş Dövlət proqramları uğurla icra edilir. İqtisadi sahədə qazanılan nailiyyətlər əhalinin sosial vəziyyətinin yüksəlməsinə firavanlığına sərf olunur.

Bəli, bu gün qədim Oğuz yurdu olan Goranboy tərəqqi yolundadır. Elə bir davamlı inkişafdadır ki, rayonun təkcə siması deyil, sakinlərin həyat tərzi, sosial iqtisadi vəziyyəti xeyli yüksəlmişdir. Firavanlıq, sabitlik, əmin-amanlıq hökm sürür. Qədirbilən, mərd goranboylular bunu hər gün, hər saat, hər an hiss edirlər.

**Zabit XƏLİLOV,**
**"Respublika".**












# Aqrar sahə əvvəlki ritmini bərpa edir

**Kürdəmir rayonunda 2018-ci ilin 9 ayında ötən ilin müvafiq dövrü ilə müqayisədə ümumi məhsul buraxılışı 14,5 faiz artaraq 295 350 800 manat təşkil etmişdir. Ümumi məhsul buraxılışının 71,9 faizi istehsal sahələrində, o cümlədən 16,4 faizi sənayedə, 50,9 faizi kənd təsərrüfatında, 4,6 faizi tikintidə olduğu halda 28,1 faizi xidmət sahələrində olmuşdur. Rayonun sosial-iqtisadi inkişafı Proqramında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi nəticəsində 2018-ci ilin ötən aylarında 701 nəfər işlə təmin olunmuşdur ki, bundan 665 nəfəri daimi işlə təmin olunanlardır. Sahibkarlığın inkişafı üçün Sahibkarlığın İnkişafı Fondunun xətti ilə 2018-ci ilin 9 ayında Kürdəmir rayonunun 5 sahibkarına 334 min manat məbləğində kredit verilmiş və nəticədə 140 yeni iş yeri yaradılmışdır. Cənab Prezidentin tapşırığına əsasən və eyni zamanda rayonun sosial-iqtisadi inkişafı Proqramında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi nəticəsində ötən aylarda rayonda fəaliyyət göstərən idarə, müəssisə və təşkilatlarda 325 nəfər müvəqqəti xarakterli işlə təmin olunmuşdur. Hər il olduğu kimi, bu il də "Əmək yarmarkası" keçirilmiş, yarmarkada 34 müəssisədən 246 boş iş yeri təqdim olunmuş, 82 nəfər daimi işlə təmin edilmiş, 38 nəfər "Xalçaçı" peşə kursuna, 21 nəfər isə ictimai işlərə cəlb olunmuşdur.**

Cənab Prezidentin diqqət yetirdiyi sahələrdən biri olan özünüməşğulluq proqramı ilə əlaqədar 92 nəfər 5 qrupda bu işlərə cəlb olunmuş və cari ilin sonuna qədər bu şəxslər öz biznes ideyaları əsasında bacardıqları fəaliyyət növü üzrə aktivlərlə təmin olunub kiçik sahibkar kimi fəaliyyətə başlayacaqlar. Regionların Sosial-İqtisadi İnkişafı Dövlət Proqramına uyğun rayonda aqrar sektorun inkişafına diqqət daha da artırılmışdır. Cənab Prezidentin qeyd etdiyi kimi, kənd təsərrüfatının inkişafı daim diqqət mərkəzindədir. Odur ki, rayonda kənd təsərrüfatının bütün sahələrini maksimum dərəcədə inkişaf etdirmək, ixracyönümlü məhsulların istehsalına daha çox diqqət yetirmək prioritet hesab olunur.

İlin ötən aylarında rayonda taxıl istehsalının artırılması sahəsində müvafiq tədbirlər görülmüş, 45028 hektar sahənin taxılı biçilmiş, 136417 ton məhsul götürülmüşdür. Taxıl istehsalı əvvəlki ilə nisbətən 55717 ton artmış, hektardan məhsuldarlıq 30 sentnerə çatdırılmışdır ki, bu da ötən ildəkindən 10 sentner çoxdur. Taxıl istehsalının qarğıdalı dəni hesabına bir qədər də artırılması tədbirləri görülmüş, bu il 1250 hektarda dənlik qarğıdalı əkilmiş, indiyədək 2 min tondan çox dən götürülmüş və hazırda məhsul yığımı davam etdirilir. Taxılın toxumçuluğuna daha ciddi fikir verilmiş, toxum fonduna 5 min tondan çox dən ayrılmış, çeşidlənərək 4 min tonadək yüksək reproduksiyalı toxum əldə edilmişdir. Növbəti ilin məhsulu üçün bu il də 45 min hektardan çox taxıl əkilməsi nəzərdə tutulmuşdur. İndiyədək 38 min hektaradək taxıl əkiləcək sahənin şumu çıxarılmış, 5 min hektardan çox sahədə arpa, 1000 hektaradək sahədə buğda əkilmiş, hazırda əkin işləri davam etdirilir. 10606 hektarda yonca, 910 hektarda kartof, 1374 hektarda tərəvəz, 3105 hektaradək sahədə bostan, 130 hektarda günəbaxan, 15 hektarda yerfındığı, 133 hektardan çox sahədə soya, 60 hektarda şəkər çuğunduru becərilmişdir. Sahələrdən 11349 ton kartof, 16300 ton tərəvəz, 53700 ton bostan, 235 tondan çox günəbaxan, 623 tonadək şəkər çuğunduru istehsal edilmişdir. Bostan, tərəvəz, şəkər çuğunduru, qarğıdalı dəni, soya yığımı hazırda davam etdirilir.

Ölkə Prezidenti Azərbaycana valyuta axınının təmin edilməsi məqsədilə ixracyönümlü məhsulların istehsalının xüsusi əhəmiyyət daşıdığını, pambığın da ixracyönümlü məhsul olduğunu və bu sahənin ciddi inkişaf etdirilməsini qarşıya mühüm vəzifə kimi qoymuşdur. Həmin tapşırığın icrasını təmin etmək məqsədilə rayonda bütün imkanlar təhlil olunaraq bu il 5030 hektar sahədə pambıq əkilmişdir. Becərmə işləri aqrotexniki qaydalara uyğun aparılmış, sahələrdə bol məhsul yetişdirilmişdir. Pambıq yığımı mütəşəkkil aparılmışdır. Yığıma 2 min nəfərdən çox işçi qüvvəsi, 14 pambıqyığan maşın, digər maşın və mexanizmlər cəlb edilmiş, sahələrdən 5 min tondan çox pambıq toplanılmışdır. Ümumilikdə pambıq əkini, becərilməsi və yığılması işinə rayon üzrə 6500 nəfərədək işçi qüvvəsi cəlb edilmişdir. Cənab Prezident baramaçılıq sahəsində də böyük inkişafın müşahidə edildiyini və bu sahənin ixracyönümlü məhsullardan olmasını, ölkənin valyuta ehtiyatlarının artırılmasında və yeni iş yerlərinin yaradılmasında mühüm amil olduğunu qeyd edərək bu sahənin inkişaf etdirilməsini vəzifə kimi qarşıya qoymuşdur. Ölkə rəhbərinin tapşırığına əsasən baramaçılığın inkişaf etdirilməsi məqsədi ilə rayonun 18 nümayəndəliyində 199 kümçüyə 520 qutu baramaqurdu verilmiş, rayon üzrə 20380 kiloqram barama tədarük edilərək "Azəripək" MMC-yə təhvil verilmişdir. Bu da əvvəlki ildəki göstəricidən 2 dəfə çoxdur.

Rayonda tərəvəzin örtülü qruntlarda yetişdirilməsi genişləndirilmiş, 28 hektaradək sahədə istixana təsərrüfatı yaradılmışdır. Bu təsərrüfatlarda 650 tondan çox xiyar və pomidor istehsal edilmiş, bunun 210 tondan çoxu ixraca yönəldilmişdir.

İnvestisiya qoyuluşu məqsədi ilə rayona cəlb edilmiş sahibkarlar tərəfindən müasir istixana tikintisi aparılır. Bu il "GEOTERMAL AGRO" MMC tərəfindən Mollakənd kəndi ərazisində 10 hektar sahədə termal sularla isidilən müasir istixana tikintisi aparılmış və hazırda istixanada pomidor becərilir. Ölkə rəhbəri aqroparkların yaradılmasına və aqroparklarda gedən işlərin gedişi və 192 min hektar sahədə 45 aqroparkın yaradılmasının nəzərdə tutulduğunu, ondan 4-nün isə istifadəyə verildiyini və ilin sonuna qədər 13 aqroparkın istifadəyə veriləcəyini vurğuladı. Rayonda iqtisadiyyatın aparıcı sahələrindən olan aqrar sektorun innovativ inkişafını təmin etmək məqsədi ilə 14650 hektar dövlət fonduna məxsus torpaq sahəsinin təyinatı dəyişdirilərək əkin dövriyyəsinə cəlb edilmiş və həmin torpaqlarda 5 aqropark yaradılmış, hazırda aqroparklarda infrastrukturların yaradılması, torpaqların yaxşılaşdırılması, suvarma şəbəkələrinin qurulması, saxlama anbarlarının və digər zəruri tikililərin tikintisi sahəsində işlər davam etdirilir. Bu il aqroparklar tərəfindən 4 min hektaradək sahədə dənli bitkilər əkilmiş, 2040 hektar sahədə pambıq və digər yazlıq əkinləri aparılmışdır. Həmin təsərrüfatların məhsuldarlıq göstəriciləri rayon üzrə orta məhsuldarlıq göstəricilərindən xeyli yüksəkdir.

Rayonda "Aqrolizinq" ASC-nin regional nümayəndəliyinin rayon bölməsi fəaliyyət göstərir. Bölməyə 266 ədəd traktor, kombayn və digər kənd təsərrüfatı maşın və mexanizmləri verilmişdir. Son iki ildə 18 müasir taxılyığan kombayn, 12 pambıqyığan maşın alınmışdır. Rayondakı fiziki və hüquqi şəxslər tərəfindən 200-dən çox traktor və digər kənd təsərrüfatı texnikası lizinqə götürülmüşdür. Kənd təsərrüfatını inkişaf etdirmək və yüksək məhsuldarlığa nail olunmasında meliorasiya və suvarma sistemləri mühüm rol oynayır. Sahələrin su təminatının yaxşılaşdırılması sahəsində də işlər görülür. Bu ilin 9 ayında 701 kilometr kanal və 102 kilometr dren şəbəkəsi lildən təmizlənmiş, 118 hidrotexniki qurğu, 6 nasos kompleksi və bir neçə beton və latok kanallar əsaslı təmir olunmuşdur. Rayonun Şilyan massivində təyinatı əkinçilik məqsədi ilə dəyişdirilmiş 6150 hektar sahənin su təchizatının yaxşılaşdırılması məqsədi ilə Ərəbxana-Şilyan kanalının su keçirmə qabiliyyətinin artırılması tədbirləri ilə əlaqədar 11 kilometrlik "Şilyan" kanalında genişləndirmə işləri başa çatdırılmış, Kür çayı sahilində inşa edilmiş nasos stansiyasında 2 ədəd elektik su nasosu quraşdırılmış, onlardan 1 ədədi işə buraxılmışdır.

Rayonda heyvandarlığın və quşçuluğun inkişaf etdirilməsi sahəsində məqsədyönlü işlər görülür. Hazırda iribuynuzlu mal-qaranın sayı artırılaraq 65156 başa, qoyun və keçilərin sayı 133319 başa çatmış, heyvandarlıq məhsulları istehsalının dinamik artımına nail olunmuş, ötən ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 9,5 faiz, süd istehsalı 0,9 faiz, yumurta istehsalı 50,3 faiz, yun istehsalı 22,0 faiz artmışdır. Rayonda məhsuldar cins heyvanların çoxaldılması tədbirləri davam etdirilir. Rayonda bu ilin ötən aylarında 1321 baş mal süni mayalandırılmış, 829 baş cinsi yaxşılaşdırılmış bala alınmışdır. Kürdəmir Baytarlıq İdarəsi tərəfindən ötən aylarda 58493 baş iribuynuzlu, 133446 baş xırdabuynuzlu heyvanlarda, 1128 baş atlarda qarayara, 85925 baş iribuynuzlu heyvanlarda, 85962 baş xırdabuynuzlu heyvanlarda isə dabaq, 55877 baş iribuynuzlu heyvanlarda infeksion nodulyar dermatitə qarşı obyekt, 206090 kvadratmetr ərazi dezinfeksiya olunmuşdur.

Azərbaycan Respublikası Prezidenti tərəfindən 2018-ci ilin Dövlət büdcəsindən Kürdəmir Rayon İcra Hakimiyyətinə şəhərin 8 çoxmənzilli ictimai yaşayış binalarının təmiri üçün ayrılmış vəsait hesabına hazırda şəhərin İ.Məmmədov küçəsində yerləşən çoxmənzilli ictimai yaşayış binalarında dam örtüyü dəyişdirilmiş, suvaq işləri aparılmış, plastik pəncərə, dəmir qapı quraşdırılmış, digər işlər görülmüşdür. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 mart tarixli Sərəncamı ilə Kürdəmir rayonunda "ASAN xidmət" mərkəzinin və 2018-ci il 30 mart tarixli sərəncamı ilə isə Kürdəmir rayonunda "Xalça istehsalı emalatxanası"nın tikintisi planlaşdırılmış, hazırda hər iki layihə üzrə tikinti işləri davam etdirilir. "ASAN xidmət" mərkəzində restoran, yeməkxana, çay evi tikililərinin dəmir-beton hissələri, "ASAN xidmət"in əsas binasında isə birinci mərtəbəsinin dəmir-beton hissələri tamamlanmışdır. "Xalça istehsalı emalatxanası"nın əsas tikinti işləri başa çatdırılmış, hazırda son tamamlama və ərazinin abadlaşdırılması işləri aparılır. "Azpetrol" yanacaqdoldurma məntəqəsi və motel binasının tikintisində əsas dəmir-beton işləri tamamlanmış, arakəsmə divarlarının tikintisinə başlanılmışdır. Ərazidə yanacaq çənləri üçün yeraltı çən parkı və su hovuzları tikilmiş, əraziyə drenaj xətləri çəkilmiş və quyuları qoyulmuşdur. Ərazi doldurucu çınqıl materialı ilə doldurularaq kipləşdirilmişdir. Dövlət Proqramının icrası ilə əlaqədar 2018-ci ilin ötən aylarında 21 saylı Yol İstismarı MMC tərəfindən yerli əhəmiyyətli Mollakənd-Axtaçı avtomobil yolunun 18-20-ci kilometrində 4625 kvadratmetr, Cəyli avtomobil yolunun 4-6-cı kilometrində 720 kvadratmetr, Xırdapay avtomobil yolunun 1-6-cı kilometrində 3400 kvadratmetr sahədə asfalt-beton qarışığı ilə çala təmiri işləri aparılmış və hazırda təmir işləri davam etdirilir.

Ölkə Prezidentinin sərəncamına əsasən Regionların Sosial-İqtisadi İnkişafı Dövlət Proqramı ilə əlaqədar hazırda rayonun Karrar qəsəbə-Pirili-Muradxan-Sor-Sor avtomobil yolunda yenidənqurma işləri həyata keçirilir. 2018-ci ilin 9 ayında Bakı-Ələt-Qazax avtomobil yolundan Şilyan, Qarasu və Muğanlı kəndlərinə giriş yollarına geriyə dönmə keçidləri qoyulmuş və lazımi yol nişanları ilə təmin edilmişdir. Rayonun Karrar-Bağman-Böyük Kəngərli avtomobil yolunun yatağının torpaq işləri tamamilə qurtarmışdır.

Rayon mərkəzi Kürdəmir şəhərində, eləcə də ayrı-ayrı kəndlərdə bu ilin əvvəlindən bəri xeyli abadlıq-quruculuq işləri görülmüş və həmin işlər davam etdirilməkdədir. Təhsil, səhiyyə, mədəniyyət, idman sahəsində əldə olunan uğurlar sevindiricidir.

Ən başlıcası Kürdəmir rayonunda iqtisadiyyatın əsasını təşkil edən aqrar sahə artıq ötən illərdəki ritmini bərpa etmişdir. Dövlət başçısı cənab İlham Əliyevin respublikada kənd təsərrüfatını inkişaf etdirmək sahəsində qarşıya qoyduğu vəzifələr Kürdəmirdə müvəffəqiyyətlə həyata keçirilir.

**Tofiq HÜSEYN,**
**"Respublika".**















*Yeni kitablar*

# MİSKİN ABDAL OCAĞININ LAYİQLİ DAVAMÇISI

**Oğuz yurdu - Göyçə mahalının Zərgərli (Sarıyaqub) kəndindən olan Hüseyn Məhəmməd oğlu tarixdə Miskin Abdal (1430-1535) kimi tanınmış böyük şəxsiyyətin Ocağında - onun yeganə oğlu Şadmanın nəslində 500 il sonra, XX əsrdə yaşayıb-yaratmış şair, jurnalist, publisist, tədqiqatçı folklorşünas Tofiq Məhəmməd oğlu Hüseynzadənin zəngin ədəbi irsi toplanılaraq 3 cildlik "Xəyal cığırı" kitabı şəklində nəşr olunmuşdur.**




Miskin Abdal nəslinin nümayəndəsi Tofiq Hüseynzadə də bu böyük ocağın davamçısı kimi sözlə, sənətlə yaşamışdır. O, irsi olaraq ulu babası Miskin Abdaldan ötürülən övliyalıq, sufilik, pirlik, şairlik informasiyasının daşıyıcısı, həm də yaşadığı Göyçə ədəbi mühitinin zəngin ruhi aləminin fəal nümayəndəsi olmuşdur.

Bu kitab, Tofiq Hüseynzadənin sağlığında 2005-ci ilin may ayında nəşr olunmuş "Səfəvilərin böyük övliyası - Miskin Abdal", vəfatından sonra isə 2017-ci ilin sentyabr ayında işıq üzü görmüş "Aşıq deyişmələrinin poetikası" adlı monoqrafiyası 3 kitabdan ibarət olmuşdur.

Tofiq Hüseynzadə 1946-cı il də Qərbi Azərbaycanın Göyçə mahalının Basarkeçər rayonunun Sarıyaqub kəndində doğulmuşdur. Hələ orta məktəbdə oxuduğu illərdə parlaq zəkası, fitri istedadı ilə həmyaşıdlarından seçilmişdir. O, ədəbi yaradıcılığa məqalə və şeirlər yazmaqla başlamışdır. Hələ Sarıyaqub kənd orta məktəbində oxuduğu illərdə sinif və məktəb divar qəzetlərinin buraxılmasında, məqalələrin yazılmasında yaxından iştirak etmiş, həmin illərdə Basarkeçər rayonunda nəşr olunan "Bolluq uğrunda" qəzetində məqalələrlə çıxış etmişdir. 1966-1971-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda ali təhsil almış, Qazax rayonunun Barxudarlı kənd məktəbində müəllim işləmişdir.

Tələbəlik illərində "Ədəbiyyat və incəsənət", "Gənc müəllim", "Qalibiyyət bayrağı", "Sosialist Sumqayıtı" və s. mətbuat orqanlarında çoxsaylı şeir və məqalələrlə, publisistik yazılarla çıxış etmişdir. Nəşr olunmuş şeirləri, əsasən "Tofiq Hüseynzadə", "Tofiq Hüseynov", "Tofiq Məmmədoğlu", "Tofiq Məhəmmədoğlu" imzaları ilə dərc olunmuş, əlyazma şeirlərində isə bəzi hallarda "Tofiq Qəmli" və ya sadəcə "Qəmli" təxəllüslərindən istifadə etmişdir. Onun şeirləri, 1985-ci ildə Qərbi Azərbaycanda nəşr olunmuş "Ədəbi Ermənistan-83" almanaxında, "Sovet Ermənistanı" və "Vardenis" rayon qəzetlərində, Azərbaycan mətbuatında, o cümlədən "Kirpi" jurnalında dərc olunmuşdur. 1991-ci ildə Azərbaycan müstəqillik əldə etdikdən sonra isə Bakı şəhərində nəşr olunan qəzet, jurnal və kitablarda, həmçinin müəllifi olduğu "Səfəvilərin böyük övliyası - Miskin Abdal" kitabında şeirləri dərc olunmuş, lakin "Xəyal cığırı" külliyyatı ilk dəfə nəşr edilmişdir.

T.Hüseynzadə 1970-ci ildən müəllimlik fəaliyyətinə başlamış, 1979-cu ilin noyabr ayından Qərbi Azərbaycanın Basarkeçər (Vardenis) rayon qəzetində ("Vardenis") əvvəlcə ədəbi işçi, 1986-cı ilin noyabr ayından isə kənd təsərrüfatı şöbəsinin müdiri vəzifələrində çalışmış, 1987-ci ildən SSRİ Jurnalistlər İttifaqının üzvlüyünə qəbul edilmişdir.

Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və deportasiya siyasəti nəticəsində Tofiq Hüseynzadə 1988-ci ilin dekabr ayında Azərbaycana köçmüş, Bakı şəhərində orta məktəbdə müəllim işləmiş, eyni zamanda jurnalist kimi fəaliyyət göstərmiş və elmi araşdırmalarını davam etdirmişdir. T.Hüseynzadə "Azərbaycan", "Xalq qəzeti", "Respublika", "Azərbaycan müəllimi", "Ulu Göyçə", "Palitra", "Paritet", "Ədalət", "Ekspress", "Günaydın", "Qalibiyyət bayrağı" və digər qəzetlərdə, habelə "Dirçəliş" və sair jurnallarda da ictimai-siyasi mövzularda çoxsaylı şeirlər və məqalələrlə, dövlət radio və televiziyasında folklorşünaslıqla bağlı, xüsusilə ulu babası Miskin Abdalla bağlı təşkil olunan verilişlərdə çıxışlar etmişdir. Onun tədqiqatçı kimi araşdırma istiqamətlərindən biri də II Dünya müharibəsində misilsiz rəşadətlər göstərmiş Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadə - "Mixaylo"nun silahdaşı olmuş Qərbi Azərbaycanın Zəngibasar (Masis rayonu) bölgəsindən olan, Miskin Abdalın portretinin müəllifi, əməkdar rəssam Cabbar Quliyevin Mehdi Hüseynzadənin saysız-hesabsız və əfsanəvi qəhrəmanlıqları ilə bağlı, həmin vaxtadək ictimaiyyətə məlum olmayan xatirələrini aşkara çıxarmışdır.

Bunlardan əlavə, Milli Elmlər Akademiyasının Folklor İnstitutunda Göyçə folklorunun toplanılması və sair tarixi mövzuların araşdırılması istiqamətində ciddi elmi-tədqiqat işləri aparmış, müxtəlif səpkili məqalələri və şeirləri ilə Azərbaycan mətbuatında yaxşı tanınmışdır.

1988-2006-cı illər Tofiq Hüseynzadə ulu babası Miskin Abdalın el ağsaqqalları və aşıqların yaddaşlarında qalan "Miskin Abdal və Şah İsmayıl", "Miskin Abdal və Sənubər", "Yetim Hüseyn" və Şeyx Heydər övladlarının həyatına həsr etdiyi "Aslan şah və İbrahim" şifahi dastanlarını toplayıb dərc etdirmiş, bununla da folklorşünaslığımıza və yazılı ədəbiyyatımıza çox qiymətli töhfələrini vermişdir. Bu mənəvi dəyərləri Milli Elmlər Akademiyasının Folklor İnstitutunun nəşr etdiyi folklor "antologiyası"nda, Nizami adına Ədəbiyyat İnstitutunun "Miskin Abdal", "Səfəvilərin böyük övliyası - Miskin Abdal" kitablarında dərc olunmuşdur.

2003-cü ildən Milli Elmlər Akademiyasının Folklor İnstitutunun dissertantı olaraq, Tofiq Hüseynzadə həmin dövrə qədər ümumiyyətlə tədqiq olunmamış, ədəbiyyatşünaslığımız üçün çox ciddi problematik mövzunun ağır yükünü öz çiyinlərinə götürərək, "Aşıq deyişmələrinin poetikası" mövzusunda dissertasiya işini yazmağa başlamışdır.

Tofiq Hüseynzadənin vaxtsız vəfatından sonra mərhumun "Aşıq deyişmələrinin poetikası" mövzusunda dissertasiya işi "Gənclik" nəşriyyatı tərəfindən monoqrafiya kimi nəşr olunmuşdur. Onun üç cildlik "Xəyal cığırı" kitabına daxil edilmiş şeirləri Azərbaycan ədəbi dilinin bütün incəliklərini, ülviyyətini özündə əks etdirməklə yanaşı, ən əsası, bədii, fəlsəfi ideya məzmunu ilə çox fərqli nəzm nümunələri kimi dəyərlidir. Şeirlərinin yüksək ümumbəşəri idealları - mənəvi, ədəbi, əxlaqi, həmçinin vətənpərvərlik, milli, dini dəyərlərə tabe olmaqla vahid süjet xəttinə - vahid ideya məzmununa malikdir.

Tofiq Hüseynzadənin şeir yaradıcılığı forma baxımından da zəngin və rəngarəngdir. O, Azərbaycan ədəbiyyatına xarakterik şeirin müvafiq növ və ölçülərinə - qoşma, gəraylı, təcnis, məsnəvi, həmçinin, sərbəst şeir, poema formalarına üstünlük vermiş, habelə, təmsil, bayatı, rübai və qəzəl, mədhiyyə, mərsiyə janrlarında da gözəl, nadir nümunələr yaratmışdır.

Tofiq Hüseynzadənin zəngin irsi qədirbilən xalqımızın rəğbəti ilə qarşılanmış və sevilməkdədir. Milli-mənəvi xəzinəmizi zənginləşdirən bu əsərlər onu yaradan istedadlı şairin parlaq obrazını həmişə bizim ürəklərdə yaşadacaqdır.

Məhəmməd peyğəmbərin "elmin qapısı" adlandırdığı İmam Əlinin məşhur bir kəlamı vardır: "Kim vəfatından sonra da yaşamaq istəyirsə, özündən sonra bir əsər qoyub getsin". Tofiq Hüseynzadə, məhz özündən sonra irs yaratmışdır.

**Qədir ASLAN,**
**Əməkdar jurnalist.**

# Azərbaycanla Ukrayna arasındakı strateji tərəfdaşlıq münasibətləri fundamental elmi əsaslara söykənir



**Kiyev şəhərində Ukrayna Milli Elmlər Akademiyasının və onun rəhbəri akademik Boris Patonun 100 illik yubileyinə həsr olunmuş təntənəli tədbir keçirilib. Dünyanın 50-yə yaxın ölkəsindən 200-dən çox akademik və alimin iştirak etdiyi silsilə tədbirlərdə ölkəmizi Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Akif Əlizadə, AMEA-nın vitse-prezidenti, akademik İbrahim Quliyev, AMEA-nın İnformasiya Texnologiyaları İnstitutunun direktoru, akademik Rasim Əliquliyev, AMEA-nın Fəlsəfə İnstitutunun şöbə müdiri Füzuli Qurbanov, ölkəmizin Ukraynadakı səfiri Azər Xudiyev təmsil ediblər.**

Taraş Şevçenko adına Milli Opera Teatrının binasında keçirilən yubiley mərasimində Ukrayna prezidenti Petro Poroşenko çıxış edərək Ukrayna Milli Elmlər Akademiyasının dünya elminin inkişafına verdiyi töhfələrdən söz açıb və akademiyanın prezidenti Boris Patona 100 illik yubileyi münasibəti ilə birinci dərəcəli Yaroslav Mudrı ordenini təqdim edib. Yubiley tədbiri çərçivəsində keçirilən beynəlxalq konfranda çıxış edən Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Akif Əlizadə 100 illik tarixə malik olan Azərbaycan və Ukrayna Milli Elmlər Akademiyalarının ötən dövr ərzində elmin müxtəlif istiqamətlərində birgə tədqiqatlar apararaq yüksək nailiyyətlər əldə etdiklərini vurğulayıb.



Prezident İlham Əliyevin ölkəmizdə elm və təhsilin inkişafına xüsusi diqqət ayırdığını nəzərə çatdıran akademik Azərbaycanla Ukrayna arasında mövcud olan strateji tərəfdaşlıq münasibətlərinin fundamental elmi əsaslara söykəndiyini bildirib. A.Əlizadə qeyd edib ki, Ukrayna Milli Elmlər Akademiyası tək Ukrayna üçün deyil, ümumilikdə dünya elminə böyük töhfələr verib. Bu baxımdan 100 illik inkişaf tarixini yaşayan UMEA mərhələ-mərhələ inkişaf edərək elmi diapazonunu ölkə hüdudlarından çox-çox kənara çıxarmağa müvəffəq olub. Akademik bildirib ki, Azərbaycanla Ukrayna alimlərinin əlaqələri olduqca geniş və zəngindir. Azərbaycan fizikləri, riyaziyyatçıları, geoloqları və elmin digər fundamental sahələrini araşdıran və tədqiq edən alimləri onilliklər boyu Ukrayna alimləri ilə birgə böyük meqalayihələr çərçivəsində, məsələn, nüvə fizikası, elektronika, Xəzər dənizinin ümumi geodinamik şəraitinin öyrənilməsi, ölkəmizdə palçıq vulkanının araşdırılması və elmin digər istiqamətlərində səmərəli tədqiqatlar apararaq uğurlu nəticələr əldə ediblər. Bu gün də ölkələrimiz arasında elmi əlaqələrin inkişafına xüsusi diqqət ayrıldığını bildirən akademik Akif Əlizadə, Ukrayna Milli Elmlər Akademiyasını və nüfuzlu elm ocağının prezidenti, akademik Boris Patonu 100 illik yubileyi münasibətilə ürəkdən təbrik edərək, Azərbaycan elmi ictimaiyyəti adından yubilyara xatirə hədiyyəsi təqdim edib.

Tədbirdə çıxış edən Ukraynanın elm adamları, dünyanın 50-dən çox ölkəsi ilə əməkdaşlıq edən Ukrayna Milli Elmlər Akademiyasının Azərbaycanla birgə elmi araşdırmalara xüsusi önəm verdiklərini vurğulayıblar. Azərbaycanla Ukraynanın Milli Elmlər Akademiyaları arasında səmərəli əməkdaşlıqdan söz açan Ukrayna Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik Anatoliy Zaqorodnıy indiyədək Azərbaycanlı alimlərlə elmin müxtəlif sferalarında aparılan birgə tədqiqat və araşdırmaların müsbət nəticələr verdiyini bildirib. Ukraynalı alimlərin Azərbaycanla birgə əməkdaşlığa xüsusi maraq göstərdiklərini vurğulayan A.Zaqorodnıy ötən il Azərbaycan Milli Elmlər Akademiyası ilə yeni əməkdaşlığa dair imzalanmış protokola əsasən müştərək elmi layihələrin araşdırılmasına start verildiyini qeyd edib. Beynəlxalq Konfransda ölkələrimiz arasındakı elmi əlaqələrin inkişafındakı xidmətlərinə görə Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Akif Əlizadəyə Ukrayna Milli Elmlər Akademiyasının 100 illiyi medalı təqdim olunub. Tədbir çərçivəsində Azərbaycanlı alimlər Ukrayna Milli Elmlər Akademiyasının elmi nailiyyətlərini özündə əks etdirən sərgi ilə tanış olublar. Sonra Milli Elmlər Akademiyasının nümayəndələri Azərbaycanın Ukraynadakı səfirliyində bu ölkədə yaşayan və təhsil alan azərbaycanlı tələbələrlə görüşüblər.



Görüş zamanı Prezident İlham Əliyevin elmin, təhsilin inkişafına xüsusi diqqət və qayğı göstərdiyini vurğulayan akademik A.Əlizadə ölkəmizdə gənc alimlərin stimullaşdırılması üçün köklü islahatların aparıldığını qeyd edib. Bildirib ki, AMEA gənc alimlərin sosial vəziyyətinin gücləndirilməsi üçün işləri davam etdirir. "Məqsədimiz gənclərin elmə marağını artırmaqdır. Gənc kadrların yetişdirilməsi AMEA-nın ən prioritet istiqamətlərindən biridir", - deyə A.Əlizadə əlavə edib. AMEA-nın prezidenti Azərbaycanda elm və təhsil sahəsində son illər əldə olunan nailiyyətləri tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Azərbaycanın Ukraynadakı səfiri Azər Xudiyev isə çıxışında azərbaycanlı tələbələri daha aktiv olmağa çağırıb və bildirib ki, səfirlik gənclərin kreativ layihələrini dəyərləndirməyə hazırdır. O deyib: "Bu gün Azərbaycan elmi inkişaf edir, qloballaşan dünyanın elm sisteminin ayrılmaz tərkib hissəsinə çevrilir. Bu prosesin əsasında Prezident İlham Əliyevin böyük qayğısı dayanır", - deyə səfir əlavə edib.

Tədbirdə AMEA-nın vitse-prezidenti, akademik İbrahim Quliyev, AMEA-nın İnformasiya Texnologiyaları İnstitutunun direktoru, akademik Rasim Əliquliyev, AMEA-nın Fəlsəfə İnstitutunun şöbə müdiri Füzuli Qurbanov elmin inkişafı ilə bağlı həyata keçirilən islahatlarda elmi fəaliyyətin yeni əsaslarla təşkili və idarə olunmasının, ölkənin intellektual resurslarının innovativ əsaslarla səfərbər edilməsinin, qabaqcıl texnologiyaların tətbiqinin, elmlərarası əlaqələrin daha da inkişafının xüsusi aktuallıq kəsb etdiyini vurğulayıblar. Sonra tələbələr müxtəlif təkliflərlə çıxış ediblər. Görüş zamanı Azərbaycan həqiqətlərinin və milli-mənəvi dəyərlərimizin təbliğ olunmasında gənclərin üzərinə düşən vəzifələr, onların elmi biliklərə xüsusi diqqət ayırmaları məsələləri ətrafında geniş fikir mübadiləsi aparılıb.

**Möhsüm QƏDİROĞLU,**
**Azərbaycan Televiziyasının Ukrayna və Şərqi Avropa Bürosunun rəhbəri.**

# BMU-da anım mərasimi

Bakı Mühəndislik Universitetində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vəfatının 15-ci ildönümü ilə əlaqədar anım mərasimi keçirilmişdir. Öncə ümummilli lider Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş və həyatından bəhs edən sənədli film nümayiş olunmuşdur.



**Universitetin rektoru, professor Havar Məmmədov** çıxış edərək ulu öndər Heydər Əliyevin həyat və fəaliyyəti haqqında mərasim iştirakçılarına ətraflı məlumat verib. Bildirib ki, Heydər Əliyev bütün ömrünü istər sovet imperiyası dönəmində, istərsə də Azərbaycan Respublikasının müstəqilliyinin bərpasından sonrakı dövrlərdə də Azərbaycan xalqına və dövlətinin möhkəmlənməsinə həsr edib. Rektor Azərbaycanın müstəqilliyinin bərpasının ilk illərində Ermənistanın Azərbaycana qarşı təcavüzünün davam etməsi, eləcə də daxili çəkişmələrin baş verdiyi bir zamanda ulu öndərin Azərbaycanın müstəqilliyinin qorunub saxlanılmasında misilsiz xidmətlərinin olduğunu bildirmişdir. Heydər Əliyevin Azərbaycanda bütün sahələrin inkişafının əsasını qoyduğunu vurğulayan rektor, ölkəmizin bu gün də möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən sürətlə irəliyə doğru aparıldığını diqqətə çatdırıb.

Daha sonra çıxış edən YAP Abşeron rayon təşkilatının sədri Bilman Vəliyev bildirib ki, YAP-ın qurucusu ulu öndər Heydər Əliyev son dərəcə mürəkkəb, ağır bir dövrdə xalqın tələbi ilə ikinci dəfə ölkəyə rəhbərlik məsuliyyətini üzərinə götürməsəydi, bugünkü müstəqil, qüdrətli, sürətlə inkişaf edən, regionun lider dövlətinə çevrilən Azərbaycandan danışmaq mümkün olmazdı. Ulu öndər Heydər Əliyevin yaratdığı müstəqil Azərbaycan Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə günü-gündən qüdrətlənir.

Bakı Mühəndislik Universitetinin iqtisadiyyat və idarəetmə fakültəsinin tələbələri, Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Amil Abdullayev və YAP Gənclər təşkilatının sədr müavini Sənan Məmmədov Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin liderlik xüsusiyyətlərindən, xalqına olan məhəbbətindən, gənclərə olan diqqət və qayğısından danışdılar. Qeyd etdilər ki, ulu öndər Heydər Əliyevin gənclər siyasəti əsrlər boyu xalqımızın malik olduğu milli-mənəvi dəyərlər əsasında müasir, inkişaf etmiş, yüksək intellektli gənc nəslin yetişdirilməsindən ibarətdir.

**M.MİRZƏ,**
**"Respublika".**

# Gəncə "Avropanın İdman Şəhəri" titulunun rəsmi bayrağını təhvil alıb

**"Avropanın İdman Paytaxtı" və "Avropanın İdman Şəhəri" titullarını qazanan şəhərlərin rəsmi təltif olunma mərasimi keçirilib. ACES Avropanın təşkilatçılığı ilə Belçika Krallığının paytaxtı Brüsseldə keçirilən tədbirdə Avropanın İdman Şəhərləri və Qəsəbələri öz titullarını götürərək 2019-cu il üçün rəsmi bayraqlarını təhvil alıblar.**




2019-cu il üçün Avropanın İdman Şəhəri seçilən Gəncə də mərasimdə təmsil olunub. Təltif etmə mərasimində Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Gənclər və İdman nazirinin müavini Fərhad Hacıyev, Milli Məclisin deputatı Xanlar Fətiyev, şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Müşfiq Cəfərov, şəhər Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyinin rəhbəri İlham Quliyev iştirak ediblər.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramovun başçılıq etdiyi nümayəndə heyəti 2019-cu il üçün Avropanın İdman şəhəri titulunu əks etdirən rəsmi bayrağı qəbul edib.

Tədbirdə çıxış edən Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Avropa Parlamentinin idman siyasətini həyata keçirən təşkilat - ACES-in rəhbərliyinə öz təşəkkürünü bildirib. Azərbaycanda həyata keçirilən uğurlu idman siyasətindən danışan Niyazi Bayramov, Prezident İlham Əliyevin ardıcıl səyləri nəticəsində bu sahənin daha da inkişaf etdiyini, Gəncənin "Avropanın İdman Şəhəri" adını layiqincə daşıyacağına əmin olduğunu bildirib. O qeyd edib ki, bu gün paytaxt Bakı ilə yanaşı, respublikanın ikinci böyük şəhəri olan Gəncədə də müasir olimpiya idman kompleksi fəaliyyət göstərir.

Qeyd edək ki Avropanın İdman Şəhəri titulunu MDB ölkələri arasında ilk dəfə olaraq Gəncə şəhəri qazanıb.

Xatırladaq ki, ACES Europe təşkilatının Qiymətləndirmə Komitəsi cari ilin may ayının 1-dən 4-dək Gəncə şəhərində səfərdə olub, səfər çərçivəsində şəhərin infrastrukturu, son 3 ildə idman sahəsində görülən işlər və əldə olunan nəticələr, o cümlədən gələcək planlarla bağlı müxtəlif məlumatlar toplayıb, görüşlər keçirib. Bunun nəticəsində 16 may tarixində qəbul olunan qərara əsasən Gəncə 2019-cu ilin "Avropanın İdman Şəhəri" tituluna layiq görülüb.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# Azərbaycanla Almaniya arasında özəlləşdirmə ilə bağlı əməkdaşlıq

Azərbaycanla Almaniya arasında özəlləşmə ilə bağlı əməkdaşlıq daha da genişlənir. Belə ki, Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənov ilə Almaniya Federativ Respublikası Özəlləşdirmə Qurumunun rəhbəri Stefan Ramge arasında Berlin şəhərində ikitərəfli görüş keçirilib. Məqsəd daşınmaz əmlak idarəçiliyi və özəlləşdirmə, o cümlədən ölkəmizdə daşınmaz əmlak bazarının formalaşdırılması sahəsində Almaniyanın aidiyyəti dövlət, qeyri-hökumət və özəl qurumları ilə əlaqələrin qurulması, əməkdaşlığın inkişafı olub.

Komitə sədri Kərəm Həsənov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə aparılan iqtisadi islahatlar son nəticədə makroiqtisadi göstəricilərin, habelə ölkə iqtisadiyyatına daxil olan xarici investisiyaların artmasına səbəb olub. Həyata keçirilən iqtisadi islahatlar fonunda daşınmaz əmlak idarəçiliyi və özəlləşdirilmə sahəsində də mühüm tədbirlər reallaşdırılmaqdadır. Özəlləşmə prosesinin müasir yanaşmalar əsasında həyata keçirilməsi, əmlak idarəçiliyində modern üsulların tətbiqi, bu sahədə şəffaflığın maksimum artırılması istiqamətində ardıcıl işlər görülüb. Nəticədə bu sahədə iqtisadi fəallıq güclənib, biznes mühiti daha da yaxşılaşdırılıb.

Qeyd edilib ki, hazırkı mərhələdə özəlləşdirilən dövlət əmlakı müstəqil qiymətləndiricilər və məsləhətçilər cəlb olunmaqla bazar prinsipləri əsasında qiymətləndirilir, açıq hərraclar və investisiya müsabiqələri vasitəsilə özəlləşdirilməyə çıxarılır. Özəlləşdirmə sahəsində innovativ yenilik, xüsusi model olan Elektron hərracın istifadəyə verilməsi investorların işini xeyli sadələşdirib. Artıq özəlləşmə ilə bağlı hərraclarda iştirakçı statusu əldə etmək və prosesdə əmlaka sahib olmaq prosedurları onlayn rejimdə və elektron qaydada həyata keçirilir.

Özəlləşdirmə prosesində şəffaflığın daha da artırılması, potensial yerli və xarici investorlar üçün optimallığın və informasiya təminatının genişləndirilməsi məqsədilə "Özəlləşdirmə portalı" fəaliyyət göstərir. Portal vasitəsilə özəlləşdirilməyə çıxarılan dövlət əmlakı barədə bütün iqtisadi və maliyyə göstəricilərini özündə ehtiva edən geniş spektrli məlumatlar təqdim olunur. Portala baxış sayı artıq 2 milyonu ötüb.

Almaniya Federativ Respublikası Özəlləşdirmə Qurumunun rəhbəri Stefan Ramge də görüşün əhəmiyyətindən danışıb. Bildirib ki, tədbir ölkələr arasında dövlət əmlakının idarəedilməsi və özəlləşdirmə sahəsində təcrübə mübadiləsinin aparılması, tətbiq olunan yeniliklər və innovativ layihələrin öyrənilməsi, bu sahədə əlaqələrin qurulması baxımından çox yaxşı vasitədir.

Tədbirdə Azərbaycan Respublikasının Almaniya Federativ Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Ramin Həsənov da iştirak edib.

**Nəriman CAVADOV,**
**"Respublika".**

# DÖVLƏT SƏRHƏD XİDMƏTİ MƏTBUAT MƏRKƏZİNİN MƏLUMATI

**Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsi tərəfindən Xəzər dənizinə çıxan üzmə vasitələrinə nəzarətin təşkili və xilasetmə tədbirlərinin həyata keçirilməsi davam etdirilir.**

2018-ci il dekabrın 4-də "Heydər Əliyev" adına Bakı Dərin Özüllər Zavodu istiqamətində texniki nasazlıq səbəbindən batma təhlükəsi ilə üzləşən "SA-16129" bort nömrəli, "Yamaha-75" mühərrikli üzmə vasitəsinin 2 nəfərdən ibarət heyəti tərəfindən Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin sahil nəzarəti bölməsinə köməklik göstərilməsi barədə müraciət edilmişdir.

Sahil nəzarəti bölməsi tərəfindən mərkəzi istiqamətində xidmətdə olan sərhəd gözətçi gəmisinə təhlükədə olan üzmə vasitəsinin koordinatları ötürülmüşdür.

Sərhəd gözətçi gəmisi tərəfindən dalğalı hava şəraitində həyata keçirilmiş axtarış-xilasetmə tədbirləri nəticəsində texniki nasazlıq səbəbindən Makarov bankasının qərb istiqamətində sahildən 13 mil məsafədə dənizdə qalmış balıqçı qayığı aşkar edilmişdir. Gəmi tərəfindən üzmə vasitəsi yedəyə alınmış, qayıqda olan 2 nəfər xilas edilərək sərhəd gözətçi gəmisinin bortuna götürülmüşdür.

Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları tərəfindən xilas edilmiş şəxslər Bakı şəhər sakinləri Ququşev Nikolay Anatolyeviç və İbrahimov Ağasəf Sahib oğlu olmuşlar.

**Dövlət Sərhəd Xidmətinin**
**mətbuat mərkəzi.**




## ❑ FRANSADA ETİRAZLAR SƏBƏBİNDƏN HƏYAT İFLİC OLUB



Fransada dekabrın 8-də “sarı jiletlər” hərəkatının növbəti etiraz aksiyası keçirilib. “Trend” agentliyinin məlumatına görə, Parisdə polislər etirazçılara qarşı gözyaşardıcı qazdan istifadə ediblər.

Verilən xəbərə görə, bu etiraz aksiyaları ilə əlaqədar Fransada ümumilikdə 90 minə yaxın polis səfərbər edilib. Paytaxt Parisə 8 min polis əməkdaşı və 12 zirehli texnika cəlb edilib.

Eyni zamanda, iri şəhərlərdə ticarət mərkəzləri, muzeylər, eləcə də Eyfel qülləsi bağlanıb. Futbol üzrə Fransa çempionatının bir neçə matçı təxirə salınıb.

Qeyd edək ki, Fransada noyabrın 17-dən yanacağın qiymətinin artması ilə əlaqədar genişmiqyaslı etiraz aksiyaları keçirilir. Yanacağın qiymətinin artmasına qarşı hərəkat “sarı jiletlər” adlandırılıb.

Fransa DİN-in məlumatına əsasən, ötən şənbə günü etiraz aksiyalarında 287 min insan iştirak edib. Ölkənin İzer departamentində aksiyalar zamanı 1 nəfər dünyasını dəyişib. Həmçinin ölkə ərazisində aksiyalar zamanı 500-dən artıq insan xəsarət alıb.

Bugünlərdə Fransa rəhbərliyi ölkəni bürüyən etirazlar fonunda yanacağa tətbiq olunan vergi rüsumlarına altı aylıq moratorium tətbiq edib. “Zorakılıq dayanmalıdır. Biz respublikanın prezidenti Emmanuel Makron ilə birgə yanvarın 1-dən qüvvəyə minməli olan üç vergi qanunu barədə qərar qəbul etdik. Məsləhətləşmələrdən sonra mən qüvvəyə minməli olan bu üç vergi qanununu 6 ay müddətinə dondururam. Qərarlar bütün tərəflərlə müzakirələr aparılmadan qəbul edilməyəcək”, - deyə Fransanın baş naziri Eduard Filipp bəyan edib.

## ❑ ABŞ İRAN NEFTİNDƏN İMTİNA ETMƏYİ MƏSLƏHƏT GÖRÜB



İran neftinin alıcıları mümkün qədər tez bir zamanda bu ölkədən neft almağı dayandırmalıdırlar. “Trend” agentliyinin məlumatına görə, bu sözləri ABŞ dövlət katibinin köməkçisinin müavini Sandra Oudrik qeyd edib.

Sandra Oudrikin sözlərinə görə, İrana qarşı sanksiyalar daha da artacaq. O deyib: “Bizim İrana qarşı yanaşmamız - təzyiq göstərilməsi üzrə maksimal kampaniyadır. Noyabrın 5-i bərpa edilən sanksiyalar son qərar deyil, başlanğıc kimi baxılmalıdır. Bizim məqsədimiz - İranın neft ixracını sıfıra çatdırmaqdır. Bütün idxalçılar öz tədarüklərini diversifikasiya etməlidirlər və bu məsələdə İrandan mümkün qədər tez bir zamanda uzaqlaşmalıdırlar”.

Qeyd edək ki, Donald Tramp may ayında ABŞ-ın İran və 6 beynəlxalq vasitəçi ilə (Rusiya, ABŞ, Böyük Britaniya, Çin, Fransa, Almaniya) 2015-ci ildə nüvə probleminin həlli barədə imzalanan sazişdən çıxmasını bəyan edib. ABŞ avqustun 7-si yenidən İrana qarşı sanksiyalar tətbiq edib.

ABŞ-ın neft ixracına aid olan İrana qarşı əlavə sanksiyaları noyabrın 5-dən qüvvəyə minib. ABŞ həmçinin Çin, Hindistan, İtaliya, Yunanıstan, Yaponiya, Cənubi Koreya, Tayvan və Türkiyəyə müvəqqəti sanksiyaların təsirindən kənar qalma imkanı verib.

## ❑ LİVAN İSRAİLDƏN BMT-yə ŞİKAYƏT ETMƏK NİYYƏTİNDƏDİR



Livanın xarici işlər naziri Cebran Basil ölkəsinə qarşı diplomatik və siyasi təbliğat apardığına görə, İsraildən BMT-yə şikayət edilməsinə dair göstəriş verib. Bu barədə “TRT” telekanalı məlumat yayıb.

Livanın Xarici İşlər Nazirliyinin açıqlamasına görə, Cebran Basil ölkəsinin BMT-dəki səfiri Amal Mudallaliyə “hücumlarına qabaqlayıcı tədbir olaraq Livana qarşı diplomatik və siyasi təbliğat apardığı” üçün İsraildən BMT-yə şikayət etmək üçün göstəriş verib.

Açıqlamada bildirilir ki, İsrail Livanın telefon şəbəkəsinə müdaxilə edərək Kafrkila bölgəsi sakinlərinə ölkə ərazisində partlayışlar olacağı və əhalinin həyatlarının təhlükə altında qalacağı barədə məlumatlar yayıb.

Eyni zamanda, bildirilir ki, Livanın cənubunda yerləşən BMT-nin Müvəqqəti Qüvvələri (UNİFİL) İsrail-Livan sərhədində aparılan müşahidələr zamanı bir tunel aşkar ediblər.

Nəticədə UNİFİL hazırda vacib olan addımların atılması üçün tərəflərlə əlaqə saxlayıb. Açıqlamada həmçinin UNİFİL-ın əldə etdiyi məlumatları Livan rəsmilərinə də göndərəcəyi bildirilib.

Qeyd edək ki, İsrail ordusunun çərşənbə axşamı günü verdiyi açıqlamada ölkənin şimalında “Hizbullaha” məxsus tunellər olduğu irəli sürülərək, bu tunelləri məhv etmək üçün Livan sərhədində əməliyyata başlandığı bildirilmişdi.

## ❑ TÜRKİYƏ-RUSİYA ANLAŞMASI RƏSMİ AFİNANI NARAHAT EDİR



Rəsmi Afina Türkiyənin Rusiya istehsalı olan “S-400” zenit-raket komplekslərini almasından narahatdır. “Sputnik” informasiya agentliyinin məlumatına görə, bunu Yunanıstanın baş naziri Aleksis Tsipras görüş zamanı Rusiya prezidenti Vladimir Putinə bildirib.

Baş nazir mətbuat konfransında qeyd edib ki, danışıqlar zamanı “Şərqi Aralıq dənizində baş verən hadisələrin inkişafını və bu bölgədə formalaşan yeni enerji xəritəsini”müzakirə ediblər. Aleksis Tsiprasın sözlərinə görə, Vladimir Putinə “Türkiyənin yeni silah proqramına münasibətindən narahatlığını” bildirib.

Daha əvvəl verilən məlumata görə, ABŞ Senatının Silahlı Qüvvələr Komitəsinin yeni rəhbəri üzrə Ceyms İnhof Türkiyəyə “S-400” zenit-raket komplekslərinin alınması ilə bağlı ultimatum göndərib. O qeyd edib ki, Türkiyə “F-35” proqramının üzvü kimi qalmaq üçün mütləq bu komplekslərdən imtina etməlidir.

Rusiya ilə Türkiyə arasında bağlanan saziş Ankaranın “S-400” sistemi ilə təchiz olunmuş dörd diviziyanı satın almasını ehtiva edir. Sazişin dəyəri 2,5 milyard dollardır. Bu sistemlərin Türkiyədə quraşdırılmasına 2019-cu ilin oktyabrında başlanacaq.

Bununla yanaşı, rəsmi Ankaranın Rusiyanın “S-400” raketlərini alması ABŞ-ın narazılığına səbəb olub. Çünki Türkiyə NATO üzvüdür və Şimali Atlantika Alyansının bütün hərbi sistemi vahid standart üzrə işləməlidir. Vaşinqton bu səbəbdən Türkiyəni sanksiyalarla təhdid edir.

## ❑ İRANDA 80 MİNDƏN ÇOX LAYİHƏ YARIMÇIQ QALIB



İran “İSNA” informasiya agentliyinin yaydığı xəbərə görə, daxili işlər nazirinin müavini Mehdi Camalinejad Zəncan ostanında bələdiyyə başçıları ilə keçirdiyi görüşdən sonra mətbuat nümayəndələrinə verdiyi açıqlama zamanı ölkədə 80 mindən çox layihənin yarımçıq qaldığını, hökumətin bu layihələri nəzarətdə saxlayacağını bildirib. Bu barədə “TRT” telekanalı məlumat yayıb.

Layihələri həyata keçirmək üçün böyük miqdarda sərmayəyə ehtiyac olduğunu qeyd edən Mehdi Camalinejad özəl sektorun dövlət şirkətlərinə nisbətən daha uğurlu olduğunu və dövlətin əlində olan layihələrin özəl sektora təhvil veriləcəyi təqdirdə irəliləyişlərin ola biləcəyini vurğulayıb.

Məlumata görə, İranda böyük layihələr başda İnqilab Keşikçiləri Ordusu olmaqla, silahlı qüvvələrə məxsus şirkətlər tərəfindən həyata keçirilir. Həmçinin prezident Həsən Ruhani bir neçə dəfə ordunu iqtisadi fəaliyyətlərə son qoymağa çağırıb.

Ölkənin müdafiə naziri Əmir Hatəmi avqust ayında veriyi açıqlamada ordu nəzdində nəqliyyat, energetika və tikinti sektorlarında fəaliyyət göstərən 130-dan çox şirkətin bağlanaraq, layihələrin özəl sektora verildiyini bildirmişdi.

## ❑ DƏNİZ SUYUNUN SƏVİYYƏSİ 7 METRƏDƏK QALXA BİLƏR



Qrenlandiyada buzlaqların sürətli bir şəkildə əriməyə davam etməsi səbəbindən dəniz suyu səviyyəsinin 7 metrədək qalxa biləcəyi müəyyənləşdirilib. “TRT” telekanalının məlumatına görə, bu barədə araşdırmanın nəticələri “Nature” jurnalında dərc olunub.

Verilən xəbərə əsasən, ABŞ-ın Boston şəhərindəki Vuds-Houl Okeanografiya İnstitutunun alimləri Qrenlandiyadakı buzlaqların XX əsrin ortaları ilə müqayisədə 33 faiz daha çox əridiyini sübuta yetiriblər.

Eyni zamanda, tədqiqatçı alim Sarah Das da Qrenlandiyadakı buz təbəqələrinin xeyli sürətli və misilsiz şəkildə əriməkdə davam etdiyini bildirib.

Araşdırma nəticəsində böyük buz təbəqələrinin bu sürətlə əriməkdə davam edəcəyi təqdirdə, dəniz suyu səviyyəsinin 7 metrədək yüksələ biləcəyi sübut olunub.

Bununla yanaşı, dünyada dəniz sahilləri yaxınlığında yerləşən 10 böyük şəhərdən 8-nin artan dəniz səviyyəsindən təsirlənə biləcəyinə işarə edilib. ■

# Vətənpərvər nəsil hər bir xalqın inkişafının əsasıdır

**Hər bir millətin tərəqqisi onun gələcəyinin necə qurulmasından asılıdır. Gələcəyi isə gənclər qurmalıdırlar. Məhz buna görə də gənclik öz soy-kökünə bağlı, milli-mənəvi dəyərlərə sadiq, tükənməz bir güc sayılır və hər bir millətin mövcudluğu üçün də sağlam gəncliyin olması vacib şərtdir. Çünki ölkədə dövlətçiliyin və müstəqilliyin daha da möhkəmləndirilməsi və gələcəyin etibarlı təminatı intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən və onların aparıcı qüvvəyə çevrilməsindən asılıdır. Məhz bu baxımdan respublikamızda gənclərlə iş sahəsində görülən tədbirlər Azərbaycan gəncliyinin daha da inkişaf etməsinə təkan verir və gənclərimizin cəmiyyətdə təsdiq olunmaları üçün şərait yaradır.**

Qeyd edək ki, Azərbaycanda həyata keçirilən dövlət gənclər siyasətinin başlıca məqsədi gənc nəslin Vətənə məhəbbət ruhunda tərbiyə olunmasıdır. Ona görə də ulu öndərimiz Heydər Əliyev gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasını təhsil sisteminin qarşısında duran ən mühüm vəzifə hesab edərdi. Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə dahi və müdrik rəhbərin bir amalı olmuşdu: hər bir Azərbaycan gənci doğma Vətənini, ana torpağı qəlbən sevsin, bu torpağın, bu yurdun vətəndaşı olması ilə fəxr etsin. Bu barədə dahi rəhbər deyirdi: **“Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik böyük bir məhfumdur. Bu, sadəcə olaraq orduda xidmət etmək deyil. Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq, budur vətənpərvərlik...”.**

Azərbaycan Respublikasının Prezidenti - Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev də öz çıxışlarında uşaq və gənclərin vətənpərvərlik tərbiyəsinin vacibliyini dönə-dönə vurğulayıb, bu işin dövlətin təhsil, gənclər siyasətinin prioritet məsələlərindən biri olduğunu diqqətə çatdıraraq deyib: “Biz böyüməkdə olan nəslin vətənpərvərlik ruhunda, milli-mənəvi dəyərlərimiz ruhunda tərbiyə edilməsinə çox böyük əhəmiyyət veririk. Bu, bizim inkişafımızın əsası, hər bir xalqın inkişafının əsasıdır”.

Şübhəsiz ki, torpaqlarımızın 20 faizinin Ermənistan tərəfindən işğal olunduğu bir vaxtda gənclərin vətənpərvərlik tərbiyəsinin düzgün təşkili daha böyük aktuallıq kəsb edir. Ona görə də vətənpərvərlik hisslərinin aşılanması üçün həyata keçirilən kütləvi tədbirlər, maarifləndirmə və təbliğat işləri bilavasitə gənclərin mənəvi, fiziki və psixoloji hazırlığının təmin edilməsinə, onlarda Vətənə, doğma torpağa məhəbbət hissinin yüksəldilməsinə, eləcə də müasir dünyamızda qloballaşmanın geniş vüsət aldığı bir zamanda milli-mənəvi dəyərlərin qorunub saxlanmasına yönəldilir.

Qeyd edək ki, ordu dövlətin suverenliyini və ərazi bütövlüyünü təmin edən əsas qüvvə kimi dövlət quruculuğunun tərkib hissələrindən biridir. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti (SHXÇDX) 7 il ərzində inkişaf yolu keçib, ordu quruculuğu prosesinin təkmilləşdirilməsinə öz töhfələrini verib. Ötən müddətdə səfərbərlik hazırlığı və səfərbərlik işinin təşkili, vətəndaşların hərbi qeydiyyata alınması, hərbi xidmətə hazırlanması və müddətli həqiqi hərbi xidmətə çağırılmasının təşkili, gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunması, habelə vətəndaşların qəbulu və müraciətlərinə baxılması, korrupsiyaya qarşı mübarizə, SHXÇDX-in daha bacarıqlı və savadlı kadrlarla komplektləşdirilməsi, maddi-texniki bazanın gücləndirilməsi və qanunvericilik bazasının təkmilləşdirilməsi, eləcə də, digər sahələrdə əhəmiyyətli nəticələr əldə edilib. Çağırış yaşına çatmış gənclərin müddətli həqiqi hərbi xidmətə cəlb edilməsi Xidmətin fəaliyyətinin digər mühüm istiqamətlərindəndir. Hazırda müharibə şəraitində olan ölkəmizdə səfərbərlik hazırlığı və müddətli həqiqi hərbi xidmətə çağırış işi Xidmətin üzərinə əlavə məsuliyyətlər qoyur. Qeyd olunan məsələlərin tələb olunan səviyyədə yerinə yetirilməsi məqsədlə bir sıra məqsədyönlü tədbirlər həyata keçirilmişdir.

Vətəndaşların hərbi-vətənpərvərlik tərbiyəsi, müddətli həqiqi hərbi xidmətə çağırışaqədərki hazırlığı, ilkin hərbi qeydiyyata alınması, xüsusi hərbi ixtisaslar üzrə hazırlığı, müddətli həqiqi hərbi xidmətə çağırılması işinin təşkili istiqamətində də tərəfimizdən bir sıra işlər görülmüşdür. Belə ki, ümumtəhsil müəssisələrində “Çağırışaqədərki hazırlıq” fənninin tədrisinin müvafiq əsasnamənin tələblərinə uyğun təşkili və keçirilməsinin yoxlanılması, həmçinin əməli köməkliyin göstərilməsi mütəmadi olaraq nəzarətdə saxlanılmışdır. Vətəndaşlar arasında hərbi-vətənpərvərlik işinin aparılması ilə əlaqədar respublikanın ayrı-ayrı rayonlarında “Vətənin müdafiəsinə hazıram” devizi altında vətənpərvərlik-maarifləndirmə xarakterli kütləvi silsilə tədbirlər keçirilmişdir. Eyni zamanda, ötən illər ərzində Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən keçirilən “Cəsurlar” və “Şahin” hərbi-idman oyunlarında Xidmətin yerli idarə, şöbə və bölmələrinin hərbi qulluqçularının yaxından iştirakı və lazımi köməkliyin göstərilməsi təmin olunmuşdur.

Əminik ki, SHXÇDX-in rəisi, general-leytenant Arzu Rəhimovun qeyd etdiyi kimi, Xidmətin hər bir əməkdaşı bundan sonra da ümummilli liderimiz Heydər Əliyev ideyalarına sadiq qalacaq, Azərbaycan Respublikasının Prezidenti - Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müəyyənləşdirdiyi vəzifələrin öhdəsindən layiqincə gələrək daha da böyük uğur və nailiyyətlər əldə etməyə çalışacaq.

**Müşfiq CƏFƏROV,**
**“Respublika”.**

*Yazı Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yaradılmasının 7-ci ildönümü münasibətilə elan edilmiş yazı müsabiqəsinə təqdim olunur.*

# M.Ş.Vazeh adına Mərkəzi Kitabxanada növbəti toplantı

**Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Yasamal rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin M.Ş.Vazeh adına Mərkəzi Kitabxanasında 138 yaşlı “Məcməyi-Şura” və 17 yaşlı “Vahid ədəbi məclisi”nin növbəti toplantısı keçirildi.**

Məclisi Yasamal rayon MKS-nin direktoru, YUNESKO-nun “İnformasiya hamı üçün” Proqramının Azərbaycan Komitəsinin sədri, ELNİT Beynəlxalq Assosiasiyasının İdarə Heyətinin üzvü Lətifə Məmmədova açaraq bildirdi ki, Azərbaycanın ədəbi həyatı cəmiyyətin və ziyalıların daim diqqət mərkəzindədir. Müasir dövrdə yaranan şeir, qəzəl, poemalar gələcək nəsillərə miras qaldığı üçün bu məsələyə həssaslıqla yanaşılır. Ədəbi mühit dövlətin diqqət mərkəzindədir.



Sonra söz “Məcməyi-Şura” məclisinin sədri tarix elmləri doktoru, professor, AMEA-nın Tarix İnstitutunun şöbə müdiri, qəzəlxan Şahin Fazilə verildi. O, məclisin ədəbiyyata verdiyi töhfələrindən danışaraq, tədbirə toplanmış şairləri təqdim etdi və onların yaradıcılığından söhbət açdı.

Məclis üzvü texnika elmləri doktoru, professor, şair Əli Ələmi milli qəzəl formasından maraqlı söhbət etdi və yeni yazdığı “Pıçıldaş mənimlə çiçək dilində” şeirini təqdim etdi. O, yazdığı qəzəllərdə milli ruha çox böyük önəm verir və əruz vəznində yazdığı əsərlər insanları ruhlandırır, mənən ucaldır.

Satirik şair Həmzə Həqqani qeyd etdi ki, o, mexanikanı çox sevir. Və onun qəzəllərində bu əks olunur. Onun ifasında məclisdə bir neçə qəzəl və rus dilində komik şeir “Жизнь - простокваша” söyləndi.

Rəssam-şair, satirik şeirlərin müəllifi Bəxtiyar Nəqqaş “Adamın adamı”, “Qanmayacaq”, “Dəli divanələrin”, “Acizəm”, “Yaxşıdır”, “Sən atmadınmı?”, “Səni neynirəm”, “Biri” kimi əsərlərini səsləndirdi.

Şair-aktyor, nasir Şahin Nəsirov və İsmayıl bəy Qutqaşınlının nəvəsi, rəssam-yazıçı, şair Xanlar Qutqaşınlı yazdıqları şeirləri oxudular.

“Vahid ədəbi məclisi”nin sədri, tanınmış jurnalist Hacı Rafiq İsmayılov məclisin yetirmələrindən danışdı və ədəbi mühitə verdiyi töhfələrlə tədbir iştirakçılarını tanış etdi.

Manaf Yetim Qacarın söylədiyi “Bu axşam Şuşanı yuxuda gördüm” və “Azərbaycan bayrağı” şeiri məclis üzvləri tərəfindən bəyənildi.

Texnika üzrə fəlsəfə doktoru, qəzəlxan Yasin Xəlil Azərbaycan ruhunda yazılmış qəzəlləri oxudu.

**Kamil İSMAYILOV,**
**“Respublika”.**

# Nünunəvi musiqi ocağı



Binə qəsəbə musiqi məktəbi hələ 1972-ci ildən, Buzovna qəsəbəsindəki 19 saylı musiqi məktəbinin nəzdində fəaliyyət göstərdiyi vaxtdan öz sözünü deməyə başlamışdır. Filial kimi fəaliyyətə 50 nəfər şagirdlə başlayan bu məktəbdə fortepiano, skripka, akkardeon, tar, kamança və klarnet sinifləri vardı. 1975-ci ildə məktəb müstəqil musiqi məktəbi statusu aldı və 2009-cu ildən isə onbirillik Binə qəsəbə 24 saylı musiqi məktəbi kimi fəaliyyətini genişləndirdi. 2010-cu ildə Heydər Əliyev Fondunun dəstəyi ilə məktəb yeni və müasir tipli bina ilə təmin olundu. Burada təkcə dərslər deyil, eyni zamanda, respublika əhəmiyyətli tədbirlər də təşkil olunmağa başlandı. Elə bunun nəticəsidir ki, Binə məktəblilərinin buraya kütləvi axını özünü göstərdi. Məktəb Binə və Mərdəkan qəsəbəsində fəaliyyət göstərən ümumtəhsil və qeyri-uşaq təhsil ocaqları ilə əlaqələrini daha da genişləndirməyə başladı. İndi məktəbdə 300-ə yaxın şagirdə təcrübəli və ixtisaslı müəllim musiqinin sirlərini tədris edir.

Məktəbin direktoru, ali ixtisas təhsilli musiqiçi Samirə İsayeva ilə söhbət edərkən bildirdi ki, burada uşaqlara musiqi təhsili verməklə yanaşı, onlara əsl vətəndaşlıq, vətənpərvərlik, etik və estetik tərbiyə hissi də təlqin edilir. Onu da qeyd etmək lazımdır ki, məktəbin şagirdləri təkcə qəsəbə və rayon tədbirlərində deyil, eyni zamanda, Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkil etdiyi tədbirlərdə də fəal iştirak edir. Fərəhlə qeyd olunmalıdır ki, məktəbin şagirdləri Prezident təqaüdünə və qeyri-fərqləndirici adlara layiq görülmüşlər. Uşaqların gələcəkdə yaxşı musiqiçi olmaları üçün burada respublikamızın qabaqcıl musiqi məktəbləri ilə daim işgüzar əlaqələr yaradılır. Məktəb təkcə uşaqlara musiqinin sirlərini öyrətmək deyil, onların səhnə vərdişlərini möhkəmlətmək üçün özfəaliyyətə cəlb olunmasını da təmin edir. Burada ustad dərsləri, səhnə mədəniyyəti, ifaçılıq sənətinə də daim diqqət yetirilir. Bütün bunların nəticəsidir ki, şagirdlər daim respublika əhəmiyyətli tədbirlərin nəinki iştirakçısı, eyni zamanda qalibi də olurlar. Təkcə son 2 ildə şagirdlər müxtəlif nominasiyalar üzrə keçirilən müsabiqələrdə diplomlar almış, laureat adına layiq görülmüşlər. Məsələn, şagirdlərdən Mədinə Axundova “TESTENE ART BAKU” adlı



Beynəlxalq İncəsənət festivalı müsabiqəsində II yerə layiq görülərək diplom almışdır. Xədicə Əhmədova da bu festivalda II yerə layiq görülmüş və diplom almışdır. Şagirdlərdən Cavidan Rəsulov, Rəşad Həsənzadə, Dilarə Abdullazadə, Səma Məmmədova, Samir Əliyev, Arzu İbrahimova, Jalə Əliyeva, Adilə Əliyeva, Həzrət Əzizli, Eldar Yarıyev və Mələk Yusifova müxtəlif yönümlü festival və incəsənət musiqi nominasiyalarının qalibi olmuşlar. Onlar keçirilən tədbirlərdə I-II yerlərə layiq görülmüşlər.

Məktəbin uğurlarından biri də odur ki, cari ilin fevral ayının 22-də Kamera Orqan zalında, 23 fevralda S.Ələsgərov adına 1 saylı Uşaq İncəsənət məktəbində bəstəkar S.Ələsgərovun xatirəsinə həsr olunmuş konsertdə, eyni zamanda, bu il 31 may tarixdə Azərbaycan Dövlət Akademik Filarmoniyasında, 1 iyunda “Uşaqların Beynəlxalq Müdafiəsi Günü” münasibətilə keçirilən konsertdə iştirak etmişdir.

Cari ilin may ayının 29-da “Respublika Günü” münasibətilə keçmişdir.

Dövlət Xalq Çalğı Alətləri Orkestri ilə (bədii rəhbər və baş drijor A.Paşayev) birgə keçirilən konsertdə məktəbin şagirdləri uğurla çıxış etmişlər.

**Zabit CAVADOV,**
**“Respublika”.**


**3 saylı Psixonevroloji Sosial Xidmət Müəssisəsi**

**KOTİROVKA SORĞUSU ELAN EDİR**

**1.** Dəftərxana və təsərrüfat xərcləri.
**2.** İdarənin xərcləri.
**Ünvan:** *Göygöl rayonu, Qırxı kəndi.*

**Gəncə Pensiyaçıların Ərazi Sosial Xidməti Mərkəzi 221100 maddəsi üzrə (Dəftərxana və təsərrüfat xərcləri)**

**KOTİROVKA SORĞUSU ELAN EDİR**

Sorğuda iştirak etmək istəyənlər Gəncə Pensiyaçıların Ərazi Sosial Xidməti Mərkəzinə müraciət edə bilərlər.
**Əlaqələndirici şəxs:** *Əfqan Qurbanov*
**Tel.:** *(022) 259 76 88.*

Lənkəran rayon aqrar islahat komissiyasının 15 aprel 1998-ci il tarixli 7 nömrəli qərarı ilə Vilvan kənd sakini Əliyev İsa İsa oğluna verilmiş Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN 319; KOD 80200038) itdiyi üçün etibarsız sayılır.

Qusar rayonu Çiləgir kənd sakini Beybutov Seyfulla Burcum oğlunun adına verilmiş torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN-0013, kod: 30121028) itdiyi üçün etibarsız sayılır.

Quliyev Rövşən Qədir oğlunun adına Bakı şəhəri Mirzə Mansur küçəsi ev №20 ünvanın 14 mart 1990-cı il tarixli səhifə №4824, Reyestr №146 Qeydiyyat vəsiqəsi (çıxarış) itdiyi üçün eribarsız sayılır.

Elan. Kənd Təsərrüfatı Nazirliyi “Dövlət Aqrar İnkişaf Mərkəzlərinin mebel və inventarlarla təchiz edilməsi üzrə” mal, iş və xidmətlərin satınalınması üçün təkliflər sorğusu elan edir. Təkliflər 13 dekabr 2018-ci il saat 17:00-dək qəbul olunur və təklif zərfləri 14 dekabr 2018-ci il tarixində saat 16:00-a açılacaqdır. Görüləcək işlərə dair “şərtlər toplusunu” əlaqələndirici şəxsə müraciət etməklə əldə etmək olar. Əlaqələndirici şəxs: Kamil Şirinov (Telefon: 498-08-44 (daxili: 165). e-mail: kamil.shirinov@agro.gov.az. Ünvan: Bakı şəhəri, Ü.Hacıbəyov küçəsi 80.

DT və XK-nin Sabirabad rayon şöbəsi tərəfindən Yusubov Ağaş Özbək oğlunun 1998-ci ildə adına verilmiş JN 901 saylı (KOD 90919018) Torpağa Mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.


**ALLAH RƏHMƏT ELƏSİN**

**“Respublika” qəzetinin baş redaktoru professor Teymur Əhmədov və redaksiyanın kollektivi iş yoldaşları İlham Pənahova, əzizi ƏLİYUSİF AĞA oğlu HÜMBƏTOVUN vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**


**Baş redaktor Teymur ƏHMƏDOV**

● Redaksiyanın telefonları:

| | | | |
|---|---|---|---|
| İqtisadiyyat və islahatlar redaksiyası: | **539-95-51;** | Xəbərlər redaksiyası: | **538-61-02;** |
| Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: | **538-55-20;** | İctimai rəy və sosial problemlər redaksiyası: | **539-95-51; 538-43-41 tel/faks;** |
| Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: | **539-26-18;** | Qəbul otağı: | **538-25-70;** |
| Humanitar siyasət redaksiyası: | **538-25-70;** | Katiblik: | **538-25-70;** |
| | | Reklam və elan xidməti: | **441-20-23.** |




● Redaksiyanın ünvanı:
AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
**E-mail:** **resp@azdata.net**
**www.respublica-news.az**
*“Respublika” qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

İndeks 0240
Tiraj 4292
Sifariş 023
Qəzetin satış qiyməti 40 qəpik

Məsul növbətçi
Müşfiq MİRZƏ

● Çapa imzalanmışdır
08.12.2018